# İnsan Hüquqları Müdafiəçiləri: İnsan Hüquqlarını Qorumaq Hüququnu Müdafiə Etmək

İNSAN HÜQUQLARI

Məlumat Vərəqəsi №.

29

Bu nəşr Avropa İttifaqı və Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığının maliyyə dəstəyi hesabına tərcümə edilərək dərc olunmuşdur. Bu nəşrin müəllifi Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığıdır. Bu nəşrdə istifadə olunan məzmun və material heç bir halda Avropa İttifaqının mövqeyini əks etdirmir.

AVROPA İTTİFAQI

UNITED NATIONS
HUMAN RIGHTS
OFFICE OF THE HIGH COMMISSIONER

# İnsan Hüquqları

## İNSAN HÜQUQLARI MÜDAFİƏÇİLƏRİ:

## İNSAN HÜQUQLARINI QORUMAQ HÜQUQUNU MÜDAFİƏ ETMƏK

**Məlumat vərəqəsi No. 29**

# MÜNDƏRİCAT

**Qısaltmalar** .................................................................... 7
**Giriş** .................................................................... 9

**Fəsillər**
**I. İNSAN HÜQUQLARI MÜDAFİƏÇİLƏRİ HAQQINDA** ....................................................11

**A. İnsan hüquqları müdafiəçiləri nə edirlər?** ..................11
1. Bütün insan hüquqları hamı üçün ................................11
2. İnsan hüquqları hər yerdə .......................................... 12
3. Yerli, milli, regional və beynəlxalq fəaliyyət ............. 12
4. Hüquq pozuntuları haqda məlumatın toplanması və yayılması ................................................ 13
5. Hüquq pozuntusu qurbanlarının dəstəklənməsi........... 13
6. Hesabatlılığın təmin edilməsi və cəzasızlığın aradan qaldırılması üzrə fəaliyyət ............................................. 13
7. Daha yaxşı idarəetmə və hökumət siyasəti ................. 14
8. İnsan hüquqları sahəsində qəbul olunmuş müqavilələrin həyata keçirilməsinə töhfə verilməsi ............................. 14
9. İnsan hüquqları üzrə maarifləndirmə və təlim ............ 15
**B. Kim insan hüquqları müdafiəçisi ola bilər?** ............... **16**
1. Peşəkar (ödənişli və ya könüllü) fəaliyyətlər vasitəsilə insan hüquqlarının müdafiəsi .......................................... 16
2. İnsan hüquqlarının qeyri-peşəkar şəraitdə müdafiə olunması ........................................................... 18
**C. İnsan hüquqları müdafiəçiləri üçün minimum standart tələb olunurmu?** ............................................................... **20**

**II. İNSAN HÜQUQLARI MÜDAFİƏÇİLƏRİNƏ QARŞI TÖRƏDİLƏN POZUNTULAR VƏ ONLARIN ÜZLƏŞDİKLƏRİ DİGƏR ÇƏTİNLİKLƏR ...................... 21**

**A. Hüquq müdafiəçilərinə qarşı atılan addımların nümunələri ............................................................... 22**
**B. Qadın hüquq müdafiəçilərinin vəziyyəti .................... 26**
**C. İnsan hüquqları müdafiəçilərinə qarşı hüquq pozuntuları törədənlər ............................................................... 28**
1. Dövlət qurumları ....................................................... 29
2. Qeyri-dövlət iştirakçıları ........................................... 30
3. Dövlət və qeyri-dövlət iştirakçılarının müsbət rolu .... 31

**III. BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI TƏRƏFİNDƏN İNSAN HÜQUQLARI MÜDAFİƏÇİLƏRİNİN MÜDAFİƏSİ VƏ İŞİNİN DƏSTƏKLƏNMƏSİ ......................................... 32**

**A. İnsan Hüquq Müdafiəçilərinə dair Bəyannamə ........ 33**
1. Hüquqi xüsusiyyət ...................................................... 33
2. Bəyannamənin müddəaları ......................................... 33
*(a) İnsan hüquq müdafiəçiərinə verilən hüquq və müdafiə vasitələri .................................................. 33*
*(b) Dövlətlərin vəzifələri ............................................ 35*
*(c) Hər kəsin cavabdehlikləri ..................................... 36*
*(d) Milli qanunvericiliyin rolu ................................... 37*
**B. Baş Katibin insan hüquq müdafiəçiləri üzrə Xüsusi Nümayəndəsi ................................................. 37**
***1. Xüsusi Nümayəndənin rəsmi mandatı ....................... 37***
***2. Xüsusi Nümayəndənin praktiki fəaliyyəti ................. 38***
*(a) İnsan hüquq mühafizəçiləri ilə əlaqələr ............... 38*
*(b) Dövlətlərlə əlaqələr ............................................. 39*
*(c) Digər əsas iştirakçılarla əlaqələr ......................... 39*
*(d) Fərdi hallar .......................................................... 39*
*(e) Ölkəyə səfərlər ..................................................... 41*
*(f) Seminar və konfranslar ........................................ 42*

*(g) Strategiyalar ........................................................ 42*
*(h) Hesabatlar ........................................................ 42*
***3. Logistika və resursların idarə olunması – İHAK-ın rolu ............................................................... 43***

**IV. İNSAN HÜQUQ MÜDAFİƏÇİLƏRİ ÖZ İŞİNDƏ NECƏ DƏSTƏKLƏNİB MÜDAFİƏ OLUNA BİLƏRLƏR? ........ 44**

**A. Dövlətlər tərəfindən fəaliyyət ..................................... 46**
1. İnsan hüquq müdafiəçiləri üzrə Bəyannamədən istifadə ................................................................... 46
2. Təcrübədə müdafiə .................................................... 47
3. Ayrı-ayrı dövlət strukturlarının fəaliyyəti .................. 48
**B. Vətəndaş cəmiyyəti və özəl sektor da daxil olmaqla, qeyri-dövlət orqanlarının atdıqları addımlar .......................... 49**
**C. BMT-nin departament, ofis və proqramlarının rolu . 50**
1. Ölkə səviyyəsində ...................................................... 51
2. Regional və beynəlxalq səviyyədə ........................... 52
**D. İnsan hüquqları müdafiəçilərinin gördükləri iş ........ 53**
1. İşin keyfiyyəti ............................................................ 54
2. Təlim ......................................................................... 54
3. Əlaqə vasitələri və şəbəkələr ..................................... 54
4. Təhlil ......................................................................... 55
5. Dövlətin insan hüquqlarını ən yüksək səviyyədə qorumasına dəstək ......................................................... 55
6. Təhlükəsizlik strategiyaları ........................................ 55
7. İnsan hüquqları müdafiəçilərinə dair Bəyannamədən istifadə ..................................................................... 56

# ƏLAVƏLƏR

**I.Cəmiyyətdəki Fərdlərin, Qrupların və Orqanların Universal şəkildə Tanınan İnsan Hüquqlarının və Əsas Azadlıqların Təşviqi və Müdafiəsi üzrə Hüquq və Vəzifələrinə dair Bəyannamə ........................................................................................................ 57**

**II. İnsan hüquq müdafiəçilərinə dair Bəyannamənin tələblərinin pozuntuları ilə bağlı iddiaların Xüsusi Nümayəndəyə təqdim edilməsinə dair Təlimatlar ........................................................................................................ 67**

# QISALTMALAR

| | |
|---|---|
| BƏT | Beynəlxalq Əmək Təşkilatı |
| BMT İHAK | BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı |
| UNAİDS | BMT-nin HİV/QİÇS üzrə Birgə Proqramı |
| BMT İP | BMT-nin İnkişaf Proqramı |
| YUNESKO | BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı |
| BMT QAK | BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı |
| UNICEF | BMT-nin Uşaq Fondu |
| UNIFEM | BMT-nin Qadınlar üçün İnkişaf Fondu |
| ÜƏP | Ümumdünya Ərzaq Proqramı |
| ÜST | Ümumdünya Səhiyyə Təşkilatı |

# GİRİŞ

Bu Məlumat Vərəqəsi insan hüquqları müdafiəçilərini olduqca dəyərli işlərində dəstəkləmək məqsədilə hazırlanmışdır. Bu, ilk növbədə dövlət qurumlarına, milli və beynəlxalq qeyri-hökumət təşkilatlarına, BMT-nin işçi heyətinə, özəl sektorun iri iştirakçılarına (o cümlədən transmilli korporasiyalara) və hüquq müdafiəçilərinin özlərinə ünvanlanmışdır. Məlumat Vərəqəsi həmçinin geniş ictimaiyyət üçün nəzərdə tutulmuşdur və hüquq müdafiəçilərinin rolu və vəziyyəti haqqında məlumatların yayılmasında jurnalistlər və başqaları üçün yararlı ola bilər.

Məlumat Vərəqəsi xüsusilə, aşağıdakılar üçün nəzərdə tutulmuşdur:

- ❖ Hüquq müdafiəçiləri ilə tez-tez təmasda olan Hökumətləri və müxtəlif sahələrdən olan peşəkarları "insan hüquqları müdafiəçisi"nin kim olduğu və hansı işləri gördüyü haqda sürətli şəkildə məlumatla təmin etmək;
- ❖ İnsan hüquqlarını müdafiə etmək hüququnu dəstəkləmək;
- ❖ Həyata keçirdikləri işin hər hansı mümkün nəticəsindən hüquq müdafiəçilərinin müdafiəsini gücləndirmək;
- ❖ Hüquq müdafiəçilərini müdafiə və təlim fəaliyyətlərini keçirərkən lazımi vasitə ilə təmin etmək.

Məlumat Vərəqəsində həmçinin Cəmiyyətdəki Fərdlərin, Qrupların və Orqanların Universal şəkildə Tanınan İnsan Hüquqlarının və Əsas Azadlıqların Təşviqi və Müdafiəsi üzrə Hüquq və Vəzifələrinə dair Bəyannamə-nin[1] qısa təhlili verilir və Birləşmiş Millətlər Təşkilatının Baş katibinin hüquq müdafiəçiləri üzrə Xüsusi Nümayəndəsinin fəaliyyəti və iş metodları haqqında tanışlıq xarakterli məlumat təqdim edilir.

İnsan hüquqları müdafiəçiləri haqqında Bəyannamədə qeyd olunur ki, hər bir şəxsin insan hüquqlarını təşviq və müdafiə etmək öhdəliyi

[1] Bundan sonra "İnsan hüquqları müdafiəçiləri haqqında Bəyannamə" kimi istinad olunur. Tam mətni üçün Əlavə I-ə baxın.

var. Bu baxımdan və bəlkə də ən mühümü, bu Məlumat Vərəqəsində daha çox insanı insan hüquqlarını müdafiə etməyə - insan hüquqları müdafiəçisi olmağa təşviq etməyə səy göstərilir.

# I. İNSAN HÜQUQLARI MÜDAFİƏÇİLƏRİ HAQQINDA

“İnsan hüquqları müdafiəçisi” fərdi şəkildə və ya digərləri ilə birlikdə insan hüquqlarını təşviq və müdafiə edən şəxsi təsvir etmək üçün istifadə olunan termindir. İnsan hüquqları müdafiəçiləri hər şeydən öncə gördükləri işlə müəyyən olunurlar və bu termin ən yaxşı şəkildə onların fəaliyyətlərinin (aşağıda A bölməsi) və fəaliyyət göstərdikləri bir sıra halların (aşağıda B bölməsi) təsviri vasitəsilə izah oluna bilər[2]. İnsan hüquqları müdafiəçilərinin fəaliyyətlərinə dair göstərilən nümunələr onların həyata keçirdikləri işlərin hamısını əhatə etmir.

## A. İnsan hüquqları müdafiəçiləri nə edirlər?

### *1. Bütün insan hüquqları hamı üçün*

İnsan hüquqları müdafiəçisi olmaq üçün istənilən şəxs fərdlər və ya qruplar adından onların hər hansı hüququ (hüquqları) ilə bağlı yaranmış problemin həlli üçün fəaliyyət göstərə bilər. İnsan hüquqları müdafiəçiləri mülki və siyasi hüquqların, həmçinin iqtisadi, sosial və mədəni hüquqların təşviqi və müdafiəsinə səy göstərirlər.

İnsan hüquqları müdafiəçiləri insan hüquqları ilə bağlı narahatlıq doğuran istənilən məsələ ilə məşğul ola bilərlər ki, bu, məsələn, məhkəməsiz cəzalandırma, işgəncə, qeyri-qanuni həbs və istintaq altında saxlama, qadınların sünnət edilməsi, ayrı-seçkilik, məşğulluq, məcburi köçürülmə, tibbi xidmətlərdən istifadə, zəhərli tullantılar və onların ətraf mühitə təsiri kimi olduqca müxtəlif məsələləri əhatə edə bilər. Müdafiəçilər yaşamaq hüququ, qidalanmaq və içməli sudan istifadə etmək hüququ, sağlamlığın mümkün olan ən yüksək standartlarından istifadə hüququ, normal yaşayış şəraiti əldə etmək hüququ, ad və vətəndaşlıq hüququ, təhsil, sərbəst hərəkət etmək və ayrı-seçkiliyə məruz qalmamaq hüququ kimi fərqli insan hüquqlarını

---

[2] “İnsan hüquqları müdafiəçisi” termini 1998-ci ildə insan hüquqları müdafiəçiləri haqqında Bəyannamənin qəbul olunmasından sonra getdikcə daha çox istifadə olunmağa başlanmışdır. Həmin dövrə kimi ən çox istifadə olunanlar isə insan hüquqları “fəalı”, “peşəkarı”, “işçisi” və ya “nəzarətçisi” terminləri idi. “İnsan hüquqları müdafiəçisi” termini daha münasib və faydalı termin hesab edilir.

dəstəkləməklə məşğuldurlar. Onlar bəzən insan kateqoriyalarının hüquqları, məsələn, qadın, uşaq, yerli əhali, qaçqın və məcburi köçkün, milli, dil və ya cinsi azlıqların hüquqları ilə bağlı yaranmış problemlərin həlli üzrə fəaliyyət göstərirlər.

***2. İnsan hüquqları hər yerdə***

İnsan hüquqları müdafiəçiləri dünyanın hər yerində fəaldırlar: ölkə daxilindəki silahlı münaqişələr nəticəsində bölünmüş vəziyyətdə olan Dövlətlərdə və sabit olan Dövlətlərdə, qeyri-demokratik olan Dövlətlərdə və güclü demokratik təcrübəyə malik olan Dövlətlərdə, iqtisadi cəhətdən inkişaf etməkdə olan, həmçinin inkişaf etmiş ölkə kimi təsnif edilən Dövlətlərdə. Onlar HİV/QİÇS, inkişaf, miqrasiya, struktur dəyişiklik siyasətləri və siyasi keçid də daxil olmaqla bir çox müxtəlif çağırışların mövcud olan şəraitdə insan hüquqlarını təşviq və müdafiə etməyə səy göstərirlər.

***3. Yerli, milli, regional və beynəlxalq fəaliyyət***

İnsan hüquqları müdafiəçilərinin əksəriyyəti öz icmaları və ölkələri daxilində insan hüquqlarına hörməti dəstəkləməklə, yerli və milli səviyyədə fəaliyyət göstərirlər. Bu hallarda onların əsas tərəf müqabili vilayət və ya bütövlükdə ölkə daxilində insan hüquqlarına hörməti təmin etməyə məsul olan yerli hakimiyyət orqanlarıdır. Bununla belə, bəzi hüquq müdafiəçiləri regional və ya beynəlxalq səviyyədə fəaliyyət göstərirlər. Onlar, məsələn, regionda və ya dünyada insan hüquqları ilə bağlı vəziyyəti müşahidə edə və regional və ya beynəlxalq insan hüquqları mexanizmlərinə, o cümlədən BMT-nin İnsan Hüquqları Komissiyasına və BMT-nin müqavilə qurumlarına bu haqda məlumat verə bilərlər[3]. Hüquq müdafiəçilərinin işi getdikcə daha qarışıq xarakter almaqdadır, belə ki, onların əsas diqqəti yerli və milli məsələlərə yönəlir, eyni zamanda ölkələrindəki insan hüquqları vəziyyətinin yaxşılaşamasını dəstəkləyə biləcək regional və beynəlxalq mexanizmlərlə də əlaqədə olurlar.

[3] İnsan hüquqları mexanizmləri haqda əlavə məlumat üçün baxın: məsələn, Məlumat Vərəqələri N.10 (1-ci Düzəliş), 15, 16 (1-ci Düzəliş 1), 17 və 27.

*4. Hüquq pozuntuları haqda məlumatın toplanması və yayılması*

İnsan hüquqları müdafiəçiləri insan hüquqları pozuntularını araşdırır, bu haqda məlumat toplayır və hesabat verirlər. Onlar öz araşdırma fəaliyyətlərinə diqqət yetirilməsini və hüquq pozuntularının qarşısının alınmasını təmin etmək məqsədilə, məsələn, öz hesabatlarının ictimaiyyətin və siyasət və ədliyyə sahəsindəki əsas vəzifəli şəxslərin nəzərinə çatdırılması üçün lobbiçilik strategiyalarından istifadə edə bilərlər. Belə fəaliyyət çox vaxt insan hüquqları təşkilatları vasitəsilə həyata keçirilir ki, bu təşkilatlar onların əldə etdiyi məlumatlar əsasında dövri surətdə hesabatlar dərc edirlər. Bununla belə, məlumat həmçinin öz diqqətini bir konkret hüquq pozuntusu halına yönəltmiş fərd tərəfindən də toplana və hesabat şəklində təqdim oluna bilər.

*5. Hüquq pozuntusu qurbanlarının dəstəklənməsi*

İnsan hüquqları müdafiəçilərinin işinin çox böyük hissəsi hüquq pozuntusu qurbanlarının dəstəklənməsi istiqamətində fəaliyyət kimi xarakterizə oluna bilər. Hüquq pozuntularının araşdırılması və bu haqda məlumat verilməsi davam etməkdə olan pozuntu hallarının sonlandırılmasına, onlarının təkrarlanmasının qarşısının alınmasına kömək edə və qurbanların onlara qarşı törədilmiş pozuntu halları ilə bağlı məhkəməyə müraciət etməsinə yardım edə bilər. Digərlər pozuntu qurbanlarına məsləhət və reabilitasiya dəstəyi göstərirlər.

*6. Hesabatlılığın təmin edilməsi və cəzasızlığın aradan qaldırılması üzrə fəaliyyət*

Bir çox insan hüquqları müdafiəçiləri insan hüquqları üzrə qanunvericilik normalarına hörmətlə bağlı hesabatlılığı təmin etmək üçün fəaliyyət göstərirlər. Ən geniş mənada, bu, hökumət qurumlarına təsir göstərməyi və beynəlxalq müqavilələri ratifikasiya etməklə insan hüquqlarına dair qəbul etdiyi beynəlxalq öhdəlikləri yerinə yetirməsi üçün Dövləti daha çox səy göstərməyə təşviq etməyi nəzərdə tuta bilər.

Daha konkret hallarda, hesabatlılıq üzərindəki diqqət insan hüquqları müdafiəçilərinin artıq baş vermiş hüquq pozuntusu ilə bağlı ictimai forumda (məsələn qəzet) və ya məhkəmə və ya tribunal qarşısında

şahidlik etməsi ilə nəticələnə bilər. Bu yolla hüquq müdafiəçiləri hüquq pozuntularının xüsusi hallarında qurbanlar üçün ədalətin təmin olunmasına və cəzasızlıq nümunələrinin aradan qaldırılmasına töhfə verirlər ki, bununla da gələcək pozuntuların qarşısını alırlar. Bir çox hüquq müdafiəçisi öz diqqətini xüsusi olaraq hüquq pozuntuları ilə bağlı cəzasızlığın aradan qaldırılmasına yönəldir və bunu çox vaxt bu məqsədlə yaradılmış təşkilatlar vasitəsilə edir. Hüquq müdafiəçilərinin bu qrupu, məsələn, prokurorlar, hakimlər və polis üçün insan hüquqları üzrə təlim keçməklə Dövlətin hüquq pozuntularını törədənləri məsuliyyətə cəlb etmək bacarığını gücləndirmək üçün də fəaliyyət göstərə bilərlər.

***7. Daha yaxşı idarəetmə və hökumət siyasəti***

Bəzi hüquq müdafiəçiləri, məsələn, Hökumətin insan hüquqları standartlarını yerinə yetirməsi göstəriciləri haqda məlumatı ictimailəşdirməklə və əldə olunmuş tərəqqiyə nəzarət etməklə, əsas diqqətlərini bütövlükdə Hökuməti insan hüquqları ilə bağlı öz üzərinə götürdüyü ödəlikləri yerinə yetirməyə təşviq etməyə yönəldirlər. Bəzi hüquq müdafiəçiləri demokratikləşmə prosesinə dəstəyi, korrupsiyanın və səlahiyyətlərdən sui-istifadənin aradan qaldırılmasını təbliğ etməklə və insanların necə səs verməsi və onların seçkilərdə iştirakının niyə vacib olması ilə bağlı təlimlər təşkil etməklə, fəaliyyətlərini yaxşı idarəetmə sahəsinə yönəldirlər.

***8. İnsan hüquqları sahəsində qəbul olunmuş müqavilələrin həyata keçirilməsinə töhfə verilməsi***

İnsan hüquqları müdafiəçiləri xüsusilə öz təşkilatları vasitəsilə beynəlxalq insan hüquqları müqavilələrinin praktiki cəhətdən həyata keçirilməsinə böyük töhfə verirlər. Bir çox qeyri-hökumət təşkilatları (QHT-lər) və hökumətlərarası təşkilatlar  kasıb və məhrum edilmiş icmalar üçün mənzil, tibbi xidmət və davamlı gəlir gətirən layihələrin hazırlanmasına yardım edirlər. Onlar əsas bacarıqlar üzrə təlimlər təklif edir və icmaların məlumata çıxışını yaxşılaşdırmaq üçün onları kompüter kimi avadanlıqlarla təmin edirlər.

Bu qrup xüsusi diqqətə layiqdir, belə ki, onun üzvləri heç də həmişə insan hüquqları müdafiəçiləri kimi xarakterizə olunmurlar. Onlar öz işlərini təsvir edərkən "insan hüquqları" terminindən istifadə etməyə bilərlər və əvəzində diqqəti daha çox öz fəaliyyət sahələrini əks etdirən "səhiyyə", "mənzil şəraiti" və ya "inkişaf" kimi terminlərə yönəldirlər. Həqiqətən də, insan hüquqlarını dəstəkləyən bu fəaliyyətlərin bir çoxu ümumi olaraq inkişaf fəaliyyəti kimi təsvir olunur. QHT-lərin bir çoxu və BMT qurumları bu kateqoriyalara aiddir. Onların işi digər insan hüquqları müdafiəçilərinin fəaliyyəti kimi insan hüquqları standartlarına hörmət və müdafiə edilməsi və bu standartlara nail olunması üçün vacibdir. Onlar insan hüquqlarına dair Bəyannamə ilə fəaliyyətlərinə verilən müdafiəyə ehtiyac duyur və bu müdafiəyə layiqdirlər.

### *9. İnsan hüquqları üzrə maarifləndirmə və təlim*

İnsan hüquqları müdafiəçiləri tərəfindən həyata keçirilən daha bir böyük fəaliyyət insan hüquqları sahəsində maarifləndirmənin təmin olunmasıdır. Bəzi hallarda maarifləndirmə tədbirləri insan hüquqları standartlarının peşəkar fəaliyyət çərçivəsində, məsələn, hakimlər, hüquqşünaslar, polis məmurları, əsgərlər və insan hüquqları nəzarətçiləri tərəfindən tətbiqi üçün təlim formasında olur. Digər hallarda maarifləndirmə daha geniş ola və insan hüquqlarının məktəblərdə tədris edilməsini və ya geniş ictimaiyyətə və ya əhalinin zəif qruplarına insan hüquqları standartları haqda məlumatın yayılmasını nəzərdə tuta bilər.

Yekun olaraq, məlumatın toplanması və yayılması, təbliğat və ictimai rəyin mobilizə edilməsi insan hüquqları müdafiəçilərinin öz fəaliyyətlərində ən çox istifadə etdikləri alətlərdir. Bununla belə, bu bölmədə təsvir olunduğu kimi, onlar həmçinin başqalarının imkanlarını artıracaq və ya təlimləndirəcək məlumatı da təmin edirlər.Onlar insan hüquqlarını reallığa çevirmək üçün zəruri olan maddi vasitələrin material means – insanların sığına biləcəyi yaşayış yerlərinin tikilməsi, ərzaq təminatı, inkişafın gücləndirilməsi və s. – təmin olunmasında fəal iştirak edirlər. Hüquq müdafiəçiləri insanların həyatını formalaşdıran qərarvermə prosesində onların iştirakını artırmaq və yaxşı idarəetməni

gücləndirmək üçün demokratik keçid üzərində işləyirlər. Onlar həmçinin sosial, siyasi və iqtisadi şərtlərin yaxşılaşmasına, sosial və siyasi gərginliklərin azalmasına, ölkə daxilində və beynəlxalq müstəvidə sülhün yaradılmasına və insan hüquqları haqda milli və beynəlxalq səviyyədə məlumatlandırmanın artırılmasına töhfə verirlər.

**B. Kim insan hüquqları müdafiəçisi ola bilər?**

Kimin insan hüquqları müdafiəçisi olduğu və ya ola biləcəyinə dair xüsusi bir tərif mövcud deyil. İnsan hüquqları müdafiəçilərinə dair Bəyannamədə (əlavə I-ə baxın) "bütün insanların və fərdlərin insan hüquqlarının və əsas azadlıqlarının pozulmasının bütün hallarının effektiv şəkildə aradan qaldırılmasına...töhfə verən...fərdlər, qruplar və birliklər"ə istinad olunur (preambulanın dördüncü bəndi). Bu geniş təsnifata uyğun olaraq, insan hüquqları müdafiəçiləri dünyanın ən böyük şəhərlərində yerləşən hökumətlərarası təşkilatlardan başlayaraq öz yerli icmaları daxilində işləyən fərdlərə kimi, insan hüquqlarının təşviqi üçün fəaliyyət göstərən hər hansı bir şəxs və ya insanlar qrupu ola bilər. Hüquq müdafiəçiləri istənilən cinsə və müxtəlif yaş qrupuna aid ola, dünyanın hər hansı hissəsində yaşaya və hər cür peşəkar və ya digər ixtisasa malik ola bilərlər. Xüsusən, qeyd olunmalıdır ki, hüquq müdafiəçiləri yalnız QHT-lərdə və hökumətlərarası təşkilatlarda fəaliyyət göstərmirlər. Bəzi hallarda hökumətdəki vəzifəli şəxslər, dövlət qulluqçuları və ya özəl sektorun nümayəndələri də hüquq müdafiəçiləri ola bilərlər.

***1. Peşəkar (ödənişli və ya könüllü) fəaliyyətlər vasitəsilə insan hüquqlarının müdafiəsi***

Fəaliyyəti ən aşkar şəkildə görünən hüquq müdafiəçiləri, gündəlik işi xüsusi olaraq insan hüquqlarının təşviqi və müdafiəsi ilə bağlı olanlardır, məsələn, milli insan hüquqları təşkilatlarında fəaliyyət göstərən insan hüquqları nəzarətçiləri, insan hüquqları ombudsmanları və ya insan hüquqları üzrə ixtisaslaşmış hüquqşünaslar. Bununla belə, hər hansı bir şəxsi hüquq müdafiəçisi kimi xarakterizə edərkən vacib olan şəxsin vəzifəsi və ya işlədiyi təşkilatın adı deyil, görülən işin insan

hüquqları xarakterli olmasıdır. Bir şəxsin hüquq müdafiəçisi olması üçün onun "insan hüquqları fəalı" kimi tanınması və ya adında "insan hüquqları" ifadəsi olan təşkilatda işləməsi əsas deyil. BMT-nin işçi heyətinin bir çox üzvlərinin gündəlik işi fərqli terminlərlə, məsələn, "inkişaf" termini ilə təsvir olunsa da, onlar hüquq müdafiəçiləri kimi xidmət edirlər. Analoji olaraq, humanitar problemlərin həlli üzrə fəaliyyət göstərən QHT-lərin milli və beynəlxalq işçi heyəti adəti üzrə hüquq müdafiəçiləri kimi xarakterizə oluna bilərlər. İcmaları HİV/QİÇS haqda maarifləndirən insanlar, yerli əhalinin hüquqları uğrunda mübarizə aparan, ətraf mühit məsələləri ilə məşğul olan fəallar və inkişaf sahəsində fəaliyyət göstərən könüllülər də hüquq müdafiəçiləri kimi həlledici rola malikdirlər.

Bir çox insan peşəkar vəzifəsi olaraq hüquq müdafiəçisi kimi fəaliyyət göstərir və gördükləri işə görə məvacib alırlar. Bununla belə, peşəkar vəzifəsi olaraq hüquq müdafiəçisi kimi fəaliyyət göstərən, lakin könüllü olan və gördüyü işə görə heç bir ödəniş almayan xeyli insan da var. Adəti üzrə, insan hüquqları təşkilatlarının maliyyə təminatı olduqca məhduddur və bu könüllülər tərəfindən göstərilən fəaliyyət çox böyük dəyərə malikdir.

Bir çox peşəkar fəaliyyətlər insan hüquqları ilə bağlı işin fasiləsiz olaraq aparılmasını nəzərdə tutmur, lakin insan hüquqları ilə qeyri-müntəzəm əlaqəyə malik olur. Məsələn, kommersiya hüququ məsələləri üzrə fəaliyyət göstərən hüquqşünaslar tez-tez insan hüquqları problemləri ilə məşğul olmaya bilərlər və bu səbəbdən avtomatik olaraq hüquq müdafiəçisi kimi təsvir oluna bilməzlər. Buna baxmayaraq, bəzi hallarda insan hüquqlarının təşviqi və müdafiəsinə töhfə verdikləri məhkəmə işləri üzərində işləməklə hüquq müdafiəçiləri kimi fəaliyyət göstərə bilərlər. Analoji olaraq, həmkarlar ittifaqlarının liderləri insan hüquqları ilə heç bir əlaqəsi olmayan tapşırıqları yerinə yetirirlər, lakin onlar xüsusi olaraq işçilərin insan hüquqlarını təşviq və müdafiə etmək üçün fəaliyyət göstərdikləri zaman hüquq müdafiəçiləri kimi xarakterizə oluna bilərlər. Eyni qaydada, jurnalistlər məlumat toplamaq və bu məlumatı çap, radio və ya televiziya mətbuatı vasitəsilə ictimaiyyətə

yaymaq üçün geniş mandata malikdir. Jurnalistlər bu ümumi rollarını oynayarkən, hüquq müdafiəçisi sayılmırlar. Bununla belə, bir çox jurnalist, məsələn, insan hüquqları haqda məlumat verərkən və ya gördükləri hallarla bağlı şahidlik edərkən, hüquq müdafiəçisi kimi fəaliyyət göstərirlər. Öz şagirdlərinə insan hüquqlarının əsas prinsiplərini öyrədən müəllimlər də bənzər rolu oynayırlar. Hüquq pozuntularının qurbanlarını müalicə və reabilitasiya edən həkimlər və tibb sahəsində fəaliyyət göstərən digər peşəkarlar da belə iş kontekstində hüquq müdafiəçiləri kimi nəzərdən keçirilə bilərlər; həkimlərin isə Hippokrat andına uyğun olaraq xüsusi cavabdehlikləri var. Ədalətin təmin olunmasına töhfə verənlər – hakimlər, polis, hüquqşünaslar və digər əsas iştirakçılar çox vaxt xüsusi rola malikdirlər və Dövlətin və ya mütəşəkkil cinayətkarlığın liderləri kimi nüfuzlu dairələrin xeyrinə olacaq qərarları vermələri üçün əhəmiyyətli təzyiqlə üzləşə bilərlər. Məhkəmə prosesinin bu iştirakçılarının ədalətli və qərəzsiz məhkəməyə çıxışın təmin olunması üçün xüsusi səy göstərdiyi və bununla da qurbanların əlaqədar insan hüquqlarını qoruduğu zaman hüquq müdafiəçisi kimi fəaliyyət göstərdiklərini demək mümkündür.

İnsan hüquqları ilə aşkar əlaqəsi olmayan digər peşəkarlar və ya peşə formalarına bənzər "xüsusi səy" təsnifatı tətbiq oluna bilər. Bu işlərdə işləyən fərdlər bəzən öz fəaliyyətlərini insan hüquqlarına xüsusi dəstək verə biləcək şəkildə həyata keçirməyi seçə bilərlər. Məsələn, bəzi arxitektorlar öz tikinti layihələrini müvafiq inşa hüquqlarını nəzərə alacaq şəkildə tərtib etməyi seçirlər; yəni bu layihə üzərində işləyəcək insanların müvafiq (müvəqqəti) yaşayış yeri ilə təmin olunmaq hüququ və ya layihənin uşaqların maraqlarına xüsusi aidiyyəti olduğu zaman onun tərtibatı ilə bağlı uşaqların rəylərinin öyrənilməsi hüququ əsas götürülür.

### *2. İnsan hüquqlarının qeyri-peşəkar şəraitdə müdafiə olunması*

Bir çox insan hər hansı peşəkar və ya iş şəraitindən kənarda hüquq müdafiəçisi kimi fəaliyyət göstərirlər. Məsələn, həbsxanalarda işgəncəyə son qoyulması ilə bağlı digər tələbələrin kampaniyasını təşkil edən tələbə hüquq müdafiəçisi kimi xarakterizə oluna

bilər. Ferma torpaqlarının ekoloji vəziyyətinin zavod tullantıları nəticəsində pisləşməsinə qarşı icma üzvlərinin nümayişini əlaqələndirən kənd icmasının sakini də hüquq müdafiəçi kimi xarakterizə oluna bilər. Hökumət daxilindəki xroniki korrupsiyaya qarşı mövqe tutan siyasətçi belə korrupsiya ilə təhlükə altına düşən yaxşı idarəetmənin və müəyyən hüquqların təşviqi və müdafiəsi istiqamətindəki fəaliyyətinə görə hüquq müdafiəçisi sayılır. Hüquq pozuntusunu törədənlərin məsuliyyətə cəlb edilməsi üzrə məhkəmə işlərindəki şahidlər, beynəlxalq insan hüquqları qurumlarına və ya yerli məhkəmələrə və tribunallara hüquq pozuntularını aradan qaldırmağa yardım etmək üçün onları məlumatla təmin edən şahidlər də bu tədbirlər kontekstində hüquq müdafiəçisi hesab oluna bilərlər.

Dünyanın hər bir yerində insanlar öz şəraitlərinə uyğun olaraq və özlərinin məqbul hesab etdikləri yollarla insan hüquqlarının reallaşdırılması üçün səy göstərirlər. Bəzi hüquq müdafiəçilərinin adları beynəlxalq səviyyədə tanınır, lakin onların əksəriyyəti naməlum olaraq qalmaqdadırlar. Fərdin yerli hökumət nümayəndəsi, qanunu qoruyan polis məmuru və ya ədalətsizliyi işıqlandırmaq üçün öz mövqeyindən istifadə edən estrada artisti olmağından asılı olmayaraq, onların hamısı insan hüquqları üzrə irəliləyişin əldə olunmasında rol oynaya bilərlər. Vacib olan bu cür insanların insan hüquqlarını dəstəkləmək üçün necə fəaliyyət göstərdiklərinə və bəzi hallarda "xüsusi səy"in göstərilib-göstərilmədiyinə baxmaqdır.

Şübhəsiz, hüquq müdafiəçilərinin fəal olduğu olduqca müxtəlif şəraitlərin siyahısını tərtib etmək mümkün deyil. Bununla belə, hüquq müdafiəçiləri üçün ümumi olan cəhətlər digərlərinə yardım etmək öhdəliyi, beynəlxalq insan hüquqları standartlarına sadiqlik, bərabərlik və qeyri-diskriminasiyaya inam, qətiyyət və bir çox hallarda olduqca böyük cəsarətdir.

## C. İnsan hüquqları müdafiəçiləri üçün minimum standart tələb olunurmu?

Hüquq müdafiəçisi olmaq üçün heç bir "ixtisas" tələb olunmur və insan hüquqları müdafiəçilərinə dair Bəyannamədə yuxarıda izah olunduğu kimi bildirilir ki, biz hamımız hüquq müdafiəçisi olmağı seçəcəyimiz təqdirdə, müdafiəçi olan bilərik. Buna baxmayaraq, hüquq müdafiəçiləri üçün tələb olunan "standart" çətin məsələdir və Bəyannamədə açıq şəkildə göstərilir ki, hüquq müdafiəçilərinin hüquqları ilə yanaşı cavabdehlikləri də var. Bu Məlumat Vərəqəsində aşağıdakı üç əsas məsələyə diqqət yönəldilir:

***İnsan hüquqlarının universallığının qəbul olunması***

Hüquq müdafiəçiləri Ümumdünya İnsan Hüquqları Bəyannaməsində müəyyən edildiyi kimi, insan hüquqlarının universallığını qəbul etməlidirlər.[4] Şəxs bəzi insan hüquqlarını inkar edə və digər hüquqları müdafiə etdiyinə görə hüquq müdafiəçisi olduğunu iddia edə bilməz. Məsələn, kişilərin hüquqlarını müdafiə edərkən, qadınların bərabər hüquqlara malik olduğunu inkar etmək qəbuledilməz olardı.

***Kim haqlı, kim səhvdir – bunun fərqi var?***

İkinci mühüm məsələ təqdim olunan arqumentlərin həqiqiliyidir. Hüquq müdafiəçisinin əsl müdafiəçi olması üçün öz arqumentlərində düzgün olması zəruri deyil. Əsas sınaq şəxsin insan hüququnu müdafiə edib-etməməsidir. Məsələn, bir qrup hüquq müdafiəçisi kənd icmasının bir neçə nəsil ərzində yaşadıqları və əkib-becərdikləri torpağa sahib olmaq hüququnu müdafiə edə bilər. Onlar həmin ərazindəki bütün torpaqlara sahib olduğunu iddia edən özəl iqtisadi maraqlara qarşı etirazlar təşkil edə bilərlər. Onlar torpağın sahibinin kim olduğu ilə bağlı düzgün fikirdə ola və ya olmaya bilərlər. Bununla belə, insan hüquqları müdafiəçilərinin hüquqi cəhətdən düzgün olub-olmadığının onların əsl hüquq müdafiəçisi olub-olmamasının müəyyənləşdirilməsinə heç bir aidiyyəti yoxdur.

---

[4] BMT Baş Assambleyasının 217 A (III) nömrəli, 10 dekabr 1948-ci il tarixli qətnaməsi ilə qəbul edilmişdir. Baxın: Məlumat Vərəqəsi No.2, İnsan Hüquqları Haqqında Beynəlx-alq Bill (Düzəliş 1).

Əsas məsələ onların mülahizələrinin insan hüquqları çərçivəsinə aid olub-olmamasıdır.

Bu çox mühüm məsələdir, çünki bir çox ölkələrdə Dövlət və ya hətta ictimaiyyət əksər hallarda hüquq müdafiəçilərinin səhv olduğunu hesab edir, belə ki, onların arqumentin yalnız bir tərəfini dəstəklədiyi düşünülür. Sonra onlara "əsl" hüquq müdafiəçisi olmadıqları deyilir. Analoji olaraq, siyasi məhbusların və ya silahlı müxalif qruplardan olan şəxslərin hüquqlarını müdafiə edən hüquq müdafiəçiləri sadəcə həmin insanların hüquqlarını qoruduqlarına görə çox vaxt Dövlət qurumları tərəfindən həmin partiyaların və ya qrupların tərəfdarları kimi qələmə verilirlər. Bu düzgün deyil. Hüquq müdafiəçiləri qoruduqları hüquqlara və bunu etmək hüquqlarına uyğun olaraq müəyyən və qəbul edilməlidirlər.

***Dinc aksiya***

Son olaraq, hüquq müdafiəçiləri tərəfindən həyata keçirilən aksiyalar insan hüquqları Bəyannaməsinin tələblərinə cavab vermək üçün dinc xarakter daşımalıdır.

## II. İNSAN HÜQUQLARI MÜDAFİƏÇİLƏRİNƏ QARŞI TÖRƏDİLƏN POZUNTULAR VƏ ONLARIN ÜZLƏŞDİKLƏRİ DİGƏR ÇƏTİNLİKLƏR

İnsan hüquqları üzrə aparılan heç də bütün işlər hüquq müdafiəçilərini risk altında qoymur və bəzi Dövlətlərdə müdafiəçilər ümumən yaxşı qorunurlar. Bununla belə, hüquq müdafiəçilərinə qarşı törədilmiş repressiyaların sərtliyi və miqyası insan hüquqları Bəyannaməsinin qəbul edilməsi və Baş katibin insan hüquqları müdafiəçiləri üzrə Xüsusi Nümayəndəsi mandatının yaradılmasının əsas səbəblərindən biri idi. Xüsusi Nümayəndə bütün ölkələrdə, o cümlədən həm gənc demokratik ölkələrdə, həm də uzun müddətdən bəri formalaşmış demokratik institutlara, təcrübələrə və ənənələrə malik olan ölkələrdə hüquq müdafiəçilərinin vəziyyəti ilə bağlı narahatlığını ifadə etmişdir. Bununla belə, (a) daxilində silahlı münaqişə və ya ciddi kütləvi iğtişaşlar mövcud olan; (b) insan hüquqlarının qanuni

və institusional müdafiə vasitələrinin və təminatların tam təmin olunmadığı və ya ümumiyyətlə mövcud olmadığı ölkələrə xüsusi diqqət yetirilmişdir.

Dünyanın hər bir regionunda bir çox görkəmli hüquq müdafiəçilərinin hüquqları pozulmuşdur. Onlar edam, işgəncə, döyülmə, qeyri-qanuni həbs və istintaq altında saxlama, ölüm təhdidləri, təqiblər və böhtanın hədəfinə çevrilmişdirlər. Hüquq müdafiəçiləri saxta ittihamların, ədalətsiz məhkəmə prosesi və hökmlərin qurbanı olmuşdurlar.

Hüquq pozuntuları ən çox hüquq müdafiəçilərinin özlərini və ya onların işlədikləri təşkilatları və mexanizmləri hədəfə alır. Bəzən pozuntular hüquq müdafiəçisinə təzyiq vasitəsi kimi onun ailəsinin üzvlərinə qarşı yönəlir. Bəzi hüquq müdafiəçiləri müdafiə etməyə çalışdıqları hüquqların mahiyyəti səbəbindən daha böyük risk altındadırlar. Qadın hüquq müdafiəçiləri bəzən cinsi əsasda olan və xüsusi diqqət tələb edən risklərlə üzləşirlər.

Əksər hallarda hüquq müdafiəçilərinə qarşı atılan addımlar həm beynəlxalq, həm də ölkədaxili hüquqa ziddir. Bununla belə, bəzi ölkələrdə hüquq müdafiəçilərinə qarşı beynəlxalq hüquqla ziddiyyət təşkil edən daxili qanunvericilik istifadə olunur.

## A. Hüquq müdafiəçilərinə qarşı atılan addımların nümunələri

Aşağıdakı paraqraflarda hüquq müdafiəçilərinin öz fəaliyyətləri zamanı qarşılaşdıqları hüquq pozuntularının və əngəllərin bəziləri təsvir olunmuşdur. Bu addımların bəziləri yalnız bir dəfə baş verə bilər, lakin çox vaxt sonradan aylar və ya hətta illər ərzində hüquq müdafiəçilərinə və onların ailələrinə təsir göstərməyə davam edirlər. Məsələn, ölüm təhdidləri hüquq müdafiəçilərini özlərinin və ailə üzvlərinin gündəlik həyat tərzini dəyişməyə və ya hətta xaricdə müvəqqəti sığınacaq tapmaq üçün ölkəni tərk etməyə vadar edir.

Bir çox hüquq müdafiəçiləri insan hüquqları ilə bağlı gördükləri işə birbaşa cavab olaraq qətllərin qurbanı olmuşdur. Onlar naməlum

şəxslər və bəzən təhlükəsizlik qüvvələrinin müəyyən edilmiş üzvləri tərəfindən oğurlanmış və sonradan ölü tapılmış və ya tamamilə yoxa çıxmışdırlar. Qətl cəhdləri nəticəsində hüquq müdafiəçiləri ağır şəkildə yaralanmış, onların xəstəxanaya aparılması və əməliyyat edilməsi tələb olunmuşdur.

Dünyanın bir sıra regionlarında ölüm təhdidləri hüquq müdafiəçilərinin qorxudulması və öz işlərini dayandırmağa məcbur edilməsi vasitəsi kimi geniş şəkildə istifadə olunur. Təhdidlər çox vaxt anonim şəkildə telefon və ya məktub vasitəsilə edilir. Bununla belə, bəzi hallarda təhdidləri hüquq müdafiəçilərinin tanıdıqları şəxslər tərəfindən edilir, lakin onlar polis tərəfindən təhqiq edilmir və ittiham olunmurlar. Qətllərə və ölüm təhdidlərinə qarşı polis və məhkəmənin effektiv cavab tədbirlərinin olmaması bu pozuntuları həvəsləndirən və əbədiləşdirən cəzasızlıq mühiti yaradır.

Hüquq müdafiəçiləri bəzən qısa və ya uzun müddətə oğurlanır və əsarətdə olduqları zaman döyülürlər. Hərbçilər, polis və təhlükəsizlik qüvvələrinin üzvləri hüquq müdafiəçilərini işgəncə altında yalandan öz günahlarını etiraf etmələrinə cəhd və ya təhlükəsizlik qüvvələri tərəfindən törədilmiş pozuntuların hüquq müdafiəçiləri tərəfindən ifşa olunmasına cavab tədbiri kimi amansızcasına döymə üsuluna əl atmışdırlar. Hüquq müdafiəçilərinin qeyri-qanuni həbsi və istintaq altında saxlanması ümumi haldır və çox vaxt həbs orderi verilmədən və hər hansı rəsmi ittiham olmadan həyata keçirilir. Hər hansı məhkəmə nəzarəti olmadan, ilkin istintaq ərzində həbsdə saxlama müddəti olduqca uzun olur və olduqca pis saxlama şəraitində baş verir. Hüquq müdafiəçiləri istintaq altında saxlanılarkən, xüsusən döyülməyə, pis rəftara və işgəncəyə məruz qala bilərlər.

Bəzi hallarda hüquq müdafiəçiləri məsuliyyətə cəlb olunma və hökm çıxarılması ilə nəticələnən cinayət və digər ittihamların obyekti olurlar. Sülhpərvər nümayişlər, polis tərəfindən pis rəftarla bağlı rəsmi şəkildə şikayət edilməsi, yerli əhalinin hüquqları ilə məşğul olan fəalların görüşündə iştirak və ya hüquq pozuntularının qurbanlarının xatirəsini yad edən bannerlərin açılması hüquq müdafiəçilərinin

rüşvətxorluq, ictimai asayişin pozulması və xuliqanlıq kimi müxtəlif ittihamlarla məsuliyyətə cəlb olunması ilə nəticələnmişdir. Bu hallarda çıxarılan məhkəmə qərarlarında uzunmüddətli həbs, məcburi şəkildə psixiatrik xəstəxanalara göndərilmə və "əmək vasitəsilə islah olunma" nəzərdə tutulmuşdur.

Hüquq müdafiəçilərinin təqibi ümumi haldır və çox vaxt bu haqda məlumat verilmir. Bu, demək olar ki, həmişə hakimiyyət orqanları tərəfindən həyata keçirilir və olduqca müxtəlif şəraitlərdə baş verə bilər. Hüquq müdafiəçiləri nəzarət altında saxlanılır və onların telefon xətləri kəsilir və ya gizlicə dinlənilir. Onların xaricə gedərək insan hüquqları forumlarında çıxış etmələrinin qarşısını almaq üçün səyahət sənədləri və şəxsiyyət vəsiqələri müsadirə olunur. İnsan hüquqları üzrə fəaliyyət göstərən hüquqşünaslar vəkil statuslarının dayandırılması ilə qorxudulmuş və ya təhqiqat altına alınmışdırlar. Hüquq müdafiəçiləri inzibati təqiblərə məruz qalmışdırlar, məsələn, xırda inzibati qanun pozuntularına görə böyük məbləğdə cərimələr ödəməyə və ya heç bir aşkar səbəb olmadan uzun dövr ərzində dəfələrlə inzibati idarəyə gəlməyə məcbur edilmişdirlər. Hakimlər hansısa xüsusi məsələyə baxmaqdan uzaqlaşdırılmış və ya qəfildən bir inzibati ərazidən digərinə keçirilmişdirlər ki, bu da onların öz ailələri ilə birlikdə ölkənin digər hissəsinə köçməsini zəruri etmişdir.

Hüquq müdafiəçiləri böhtan kampaniyalarının qurbanı olmuş, Dövlət tərəfindən idarə olunan mətbuatda onların şərəf və əxlaqına hücum edən böhtan xarakterli iddialar ortaya atılmışdır. İnsan hüquqlarından sui-istifadəni ifşa edən müstəqil QHT-ləri və jurnalistləri nüfuzdan salmaq üçün saxta şikayətlər uydurulmuşdur. Hüquq müdafiəçiləri və onların işi bilərəkdən təhrif edilərək, ictimaiyyətə yanlış şəkildə təqdim olunmuş, terrorist, qiyamçı, təxribatçı və ya müxalif siyasi partiyaların üzvü kimi və digər şəkildə təsvir olunmuşdurlar. Dövlət qurumları və mətbuatı hüquq müdafiəçilərini hüquqlarını qorumağa çalışdıqları şəxslərlə eyniləşdirmişdirlər, məsələn, silahlı müxalif qruplardan olan şəxslərin hüquqlarını qoruyan hüquq müdafiəçilərinin özləri bu qrupların üzvü kimi xarakterizə olunmuşdurlar.

“Təhlükəsizlik” tədbirləri kimi təsvir olunan siyasətlər, qanunvericilik və prosedurlar bəzən hüquq müdafiəçilərinin işini məhdudlaşdıracaq və bəzən onların özünü hədəfə alacaq şəkildə tətbiq olunur. Təhlükəsizlik səbəbləri bəhanəsi ilə hüquq müdafiəçilərinə öz şəhərlərini tərk etmək qadağan olunmuş, polis və təhlükəsizlik qüvvələrinin üzvləri onları öz idarələrinə çağıraraq qorxutmuş və insan hüquqları ilə bağlı bütün fəaliyyətlərini dayandırmağı tapşırmışdır. Hüquq müdafiəçiləri qeyri-müəyyən təhlükəsizlik qanunvericiliyi əsasında məsuliyyətə cəlb olunmuş və günahkar elan olunmuş, onlara ağır həbs cəzaları verilmişdir.

Fərdləri hədəf olan hüquq pozuntularına əlavə olaraq, bəzi Dövlətlərdə hüquq müdafiəçilərinin fəaliyyət göstərdiyi mühiti məhdudlaşdırmaq strategiyasına dəlalət edən aşkar tendensiyalar mövcuddur. Təşkilatlar kiçik bəhanələr irəli sürülərək bağlanır; maliyyələşdirmə mənbələri kəsilir və ya qeyri-müvafiq şəkildə məhdudlaşdırılır; insan hüquqları mandatına malik olan təşkilatın qeydiyyatdan keçirilməsi ilə bağlı səylər daxili bürokratiya vasitəsilə yubadılır. Dövlət qurumları hüquq müdafiəçiləri arasında görüşlərin keçirilməsinə mane olur və onların insan hüquqları ilə bağlı problemləri araşdırmaq üçün səyahət etmələrinin qarşısını alır.

Qeyri-hökumət təşkilatlarının fəaliyyətlərinin qeydiyyatı və tənzimlənməsi haqda qanunlar və ya insan hüquqları ilə bağlı fəaliyyətlər üçün xaricdən maliyyə vəsaitlərinin alınmasının qadağan edilməsinə dair qanunvericilik kimi fikir və ifadə azadlığı, dini etiqad, birləşmə və hərəkət azadlığı hüquqlarından qanuni şəkildə istifadəni məhdudlaşdıran qanunların qəbulu və həyata keçirilməsi hüquq müdafiəçilərinin fəaliyyətini təqib etmək və əngəlləmək üçün istifadə olunmuşdur.

Hüquq müdafiəçilərinin fəaliyyətinin əngəllənməsi ilə bağlı cəhdlərin bəziləri onların iş yerinə və ya iş vasitələrinə yönəlmişdir. Hüquq müdafiəçilərinin ofisləri və/və ya evləri hücumlara, oğurluğa və icazəsiz axtarışlara məruz qalır. Hüquq müdafiəçilərinin öz fəaliyyətlərini həyata keçirdikləri məkanlar hökumət idarələri

tərəfindən başlanmış və onların bank hesabları dondurulmuşdur. Hüquq müdafiəçilərinin avadanlıqları və faylları, o cümlədən kompüterləri, sənədləri, şəkilləri və disketləri oğurlanmış və ya müsadirə edilmişdir. İnternetə və beynəlxalq elektron poçt vasitələrinə çıxış məhdudlaşdırılmış və ya tamamilə qarşısı alınmışdır.

Hüquq müdafiəçilərinin hüquqlarının yuxarıda qeyd olunan bütün pozulma halları bir çox ölkələrdə hüquq müdafiəçilərinə qarşı atılan addımlarla münasibətdə mövcud olan cəzasızlıq mədəniyyəti ilə daha da çətinləşmişdir.

### B. Qadın hüquq müdafiəçilərinin vəziyyəti

Qadın hüquq müdafiəçiləri yuxarıda A bölməsində təsvir olunmuş bütün hərəkətlərlə üzləşmişdirlər. Bununla belə, onların xüsusi vəziyyəti və rolu həm bu cür təzyiqlərin onlara fərqli şəkildə təsir göstərə biləcəyi yollara, həm də bəzi əlavə çağırışlara xüsusi anlayış və həssaslıq tələb edir. Qadın, həmçinin kişi hüquq müdafiəçilərinin öz işlərini həyata keçirərkən yaxşı müdafiə olunmasını və dəstəklənməsini və həqiqətən də, bu qadınların hüquq müdafiəçiləri kimi tam şəkildə tanınmasını təmin etmək olduqca vacibdir.

Aşağıdakı paraqraflarda qadın hüquq müdafiəçilərinin onlara qarşı çıxan kişilərdən müxtəlif təzyiqlər görə biləcəkləri və bu səbəbdən də xüsusi şəkildə qorunmalarının tələb olunduğu hallara dair bir neçə nümunə (heç də yekun siyahı deyildir) verilmişdir.

Aşağıda C bölməsində müzakirə olunduğu kimi, Dövlət hüquq müdafiəçilərinə qarşı baş verən zorakılıqların əsas günahkarıdır. Bununla belə, qadın hüquq müdafiəçiləri çox vaxt müəyyən etmişdirlər ki, onların hüquqları öz icmalarının üzvləri tərəfindən pozulur. Bu üzvlər hiddətlənə və qadınların insan hüquqları ilə bağlı fəaliyyətlərinə qarşı çıxa bilərlər, belə ki, icma liderləri bu fəaliyyətlərin qadınların ənənəvi rolu haqda onlarda mövcud olan anlayışları şübhə altında aldığını hesab edə bilərlər. Bu kimi hallarda Dövlət qurumları çox vaxt qadınları təhdid edən sosial qüvvələrə

qarşı qadın hüquq müdafiəçilərini və onların işini müvafiq müdafiə ilə təmin etməyi bacarmamışdırlar.

Dünyanın bir çox yerində qadınların ənənəvi rolu cəmiyyətin mədəniyyətinin ayrılmaz hissəsi kimi qəbul edilir. Bu, qadın hüquq müdafiəçilərinin öz ənənə və mədəniyyətlərinin insan hüquqlarını pozan aspektlərini şübhə altına almasını və bunlara qarşı çıxmasını xüsusilə çətinləşdirə bilər. Qadınların sünnət olunması belə təcrübələr üçün yaxşı nümunədir, halbuki bir çox başqa nümunələr də var.

Analoji olaraq, qadınların çoxu öz icmaları tərəfindən icmanın davamı kimi qəbul edilirlər. Əgər qadın hüquq müdafiəçisi insan hüquqları üzrə göstərdiyi fəaliyyət səbəbindən zorlanmaya məruz qalırsa, o, öz qohumları tərəfindən həm ailəni, həm də daha geniş icmanı rüsvay edən qadın kimi qiymətləndirilə bilər. Hüquq müdafiəçisi kimi həmin qadın yalnız zorlanmanın deyil, həm də öz insan hüquqları fəaliyyəti nəticəsində ətrafındakıları rüsvay etməsi ilə bağlı icma daxilində mövcud olan təsəvvürün ağır yükünü daşımalıdır. Hətta zorlanmanın və digər hücumların baş vermədiyi zaman hüquq müdafiəçisi olmağı seçmiş qadınlar əksər hallarda onların şərəf və mədəniyyəti təhlükə altına atdığını hesab edən ailə və icmaların qəzəbi ilə üzləşməlidirlər. İnsan hüquqları sahəsindəki fəaliyyətin dayandırılması üçün göstərilən təzyiq olduqca güclü ola bilər.

Azyaşlı uşaqların və yaşlı valideynlərin gündəlik qayğısına qalmaq cavabdehliyi olan qadın hüquq müdafiəçilərinə insan hüquqları ilə bağlı fəaliyyətlərini davam etdirmək çox vaxt çətin olur. Belə ki, onlar həbs və istintaq altında saxlanmanın ailədəki bu rollarını yerinə yetirmələrinə imkan verməyəcəyini bilirlər.

Baxmayaraq ki, bütün dünyada kişilər öhdələrindəki ailə üzvlərinin qayğısına qalmaq cavabdehliyini qadınlarla getdikcə daha çox paylaşmağa başlayıblar, bu məsələ qadın hüquq müdafiəçiləri üçün narahatlıq doğurmağa davam edir. Bununla belə, qadınlar bu roldan hüquq müdafiəçisi kimi fəaliyyətlərini gücləndirmək üçün də

istifadə etmişdirlər, məsələn, “yoxa çıxmış şəxslərin anaları” insan hüquqları təşkilatları yaratmışdırlar. Onların hüquq pozuntusunun qurbanlarının anaları olması faktı bu müdafiəçilər üçün olduqca güclü birləşdirici şüar və təbliğat vasitəsi rolunu oynamışdır.

İnsan hüquqları ilə bağlı hər hansı xüsusi məsələyə təsir edən çətinliklər bəzən qadın hüquq müdafiəçilərinə qeyri-adi şəkildə təzyiq göstərə bilər. Bir çox mədəniyyətlərdə qadınların ictimaiyyət qarşısında kişiyə tabe olmasına dair mövcud olan tələblər kişilərin hüquq pozuntusuna səbəb olan addımlarının qadınlar tərəfindən ictimai şəkildə sorğu-sual edilməsinə mane ola bilər. Analoji olaraq, dini mətnlərin müəyyən şərhləri çox vaxt insan hüquqlarına böyük təsir göstərən qanun və təcrübələrin müəyyən edilməsi üçün istifadə olunur. Belə qanun və təcrübələrə və onların insan hüquqlarına mənfi təsirinə qarşı çıxmaq istəyən qadın hüquq müdafiəçilərinin qadın olduqlarına görə belə dini yazıları şərh etmək səriştəsi olan etibarlı şəxs kimi qəbul edilmələrinə çox vaxt icazə verilmir. Bununla da, həmin qadın hüquq müdafiəçiləri onlara qarşı istifadə olunan əsas arqumentlərə kişilərlə bərabər şərtlər altında cavab vermək imkanından məhrum olurlar. Yenə də qeyd olunmalıdır ki, qadınlar yaşamağa davam etməli olduqları icmanın düşmən münasibəti ilə də üzləşə bilərlər. Qadın hüquq müdafiəçilərinin qarşılaşdıqları çağırışlar bəzən kişilərin üzləşdiyi problemlərdən daha geniş təhlil və anlayış tələb edir.

### C. İnsan hüquqları müdafiəçilərinə qarşı hüquq pozuntuları törədənlər

Hüquq müdafiəçilərinə qarşı hüquq pozuntularını ən çox törədən dövlət qurumlarıdır, lakin hüquq müdafiəçilərinin müdafiəsinin təmin olunmasına əsas məsuliyyət məhz onların üzərinə düşür. Bununla belə, müxtəlif “qeyri-Dövlət” iştirakçıları da hüquq müdafiəçilərinə qarşı hərəkətlər edir və ya hansısa formada bu hərəkətlərə cəlb olunurlar. Onların cavabdehliyini qeyd etmək mühümdür.

## *1. Dövlət qurumları*

Hüquq müdafiəçilərinə qarşı hüquq pozuntusu törətmiş Dövlət qurumlarının hamısını burada sadalamaq mümkün deyil. Buna baxmayaraq, burada bəzi nümunələri qeyd etmək faydalıdır və vurğulanmalıdır ki, əksər hallarda, hüquq pozuntusunu törədənin Dövlət qurumlarından biri olduğu zaman, digər qurumlar da bu pozuntunun qarşısını almadıqları və ya reaksiya göstərmədiklərinə görə çox vaxt onun iştirakçısı olurlar. Bu mənada, Dövlət qurumlarının həm bürokratik, həm də siyasi səviyyələrdə çoxsaylı səlahiyyət növlərini və xüsusən yerli, həmçinin milli səviyyədə hakimiyyət orqanlarını əhatə etdiyi başa düşülməlidir.

Polis və digər təhlükəsizlik qüvvələri qeyri-qanuni həbs, axtarış və fiziki zorakılıq kimi əməllərin ən aşkar icraçılarıdır. Buna baxmayaraq, digər qurumlar da adətən bu əməllərin iştirakçısı olurlar. Məsələn, yerli hakimiyyət orqanları tərəfindən verilmiş order əsasında beynəlxalq standartlara zidd həbs həyata keçirilir və bu məsuliyyətə cəlb olunma və hökm çıxarılması ilə nəticələnirsə, polis, məhkəmə üzvləri və Dövlətin vəkilləri hamısı hüquq müdafiəçisinin hüquqlarının pozuntusunda iştirak etmiş ola bilərlər.

Qanunların və ya inzibati normaların hüquq müdafiəçilərinin qeyri-hökumət təşkilatlarını qeydiyyatdan keçirmələrinə və ya birlikdə görüş təşkil etmələrinə imkan verməyəcək formada qeyri-münasib şəkildə tətbiq olunduğu hallarda bu qaydaların tətbiqi üzrə cavabdeh olan mülki hakimiyyət orqanları böyük məsuliyyət daşıyırlar. Hüquq müdafiəçilərini saxtakarlıqla inzibati “qanunsuzluq” törətməyə itələmək və bundan sonrakı həbs, istintaq altında saxlama və məhkəmə qərarı üçün əsas kimi istifadə etmək bəzi Dövlət qurumları üçün adi haldır.

Hüquq müdafiəçilərinə qarşı anonim ölüm təhdidləri kimi bəzi hüquq pozuntularını törədənləri əminliklə müəyyən etmək çətin ola bilər. Hər bir hüquq pozuntusunda olduğu kimi, belə vəziyyətlərdə müvafiq Dövlət orqanı törədilmiş əməlin araşdırılmasına görə

məsuliyyət daşıyır, zəruri olduğu hallarda müvəqqəti qorumanı təmin edir və cavabdeh şəxsləri məsuliyyətə cəlb edir. Dövlət orqanları bu cavabdehliklərini yerinə yetirmədikdə vəzifə borclarını pozmuş olurlar. Praktikada bəzi ölkələrdəki polis bəzən hüquq müdafiəçilərinə qarşı hücumlara dair edilmiş şikayətlər üzrə hərəkət etməkdən və ya hətta bu şikayəti qeydiyyata almaqdan imtina edir, məhkəmələr isə hüquq pozuntusunu törədənləri məsuliyyətə cəlb etməyə meylli olmurlar. Hakimiyyət orqanlarının fəaliyyətsizliyi bəzən hüquq pozuntusunun davam etməsinə və ya təkrarlanmasına və daha da pisləşməsinə imkan yaratmış, ardıcıl ölüm təhdidləri nəticə etibarilə hüquq müdafiəçisinin öldürülməsinə gətirib çıxarmışdır.

***2. Qeyri-dövlət iştirakçıları***

"Qeyri-dövlət" iştirakçıları qrupu olduqca genişdir və silahlı qruplar, transmilli korporasiyalar kimi biznes subyektlərini və fərdləri əhatə edir. Hüquq müdafiəçilərinin qorunması üzrə əsas cavabdehliyi Dövlət daşısa da, etiraf olunmalıdır ki, qeyri-Dövlət iştirakçıları Dövlətin iştirakı ilə və ya iştirakı olmadan hüquq müdafiəçilərinə qarşı törədilmiş əməllərə cəlb oluna bilərlər. Silahlı qruplar hüquq müdafiəçilərini susdurma taktikası kimi digər əməllərlə yanaşı, qətl, oğurluq və ölüm təhdidlərindən müntəzəm şəkildə istifadə etmişdirlər. Bu qrupların bəziləri, məsələn, hərbiləşdirilmiş qüvvələr Hökumətlərlə gizli razılaşmaya malik olurlar, silahlı müxalif qruplar kimi başqa qruplar isə Dövlətlə münaqişə vəziyyətində olurlar.

Transmilli korporasiyalar və ya böyük torpaq sahibləri kimi özəl iqtisadi maraqlar yerləşdikləri icmanın insanlarının iqtisadi və sosial maraqlarına təsir göstərirlər və bu təsir getdikcə daha çox etiraf olunur. Hüquq müdafiəçilərinin transmilli korporasiyaların insan hüquqlarına mənfi təsiri ilə bağlı din nümayiş keçirdiyi bəzi ölkələrdə təhlükəsizlik qüvvələri etirazları yatırmaq üçün zorakılıqdan istifadə etmişdir. Digər hallarda kimliyi müəyyən edilməmiş, lakin özəl iqtisadi maraqların adından hərəkət etməkdə şübhəli bilinən fərdlər hüquq müdafiəçilərinə hücum etdiyi zaman hakimiyyət orqanları məsələyə müdaxilə etməmişdir. Baş katibin hüquq müdafiəçiləri ilə bağlı Xüsusi Nümayəndəsi qeyd etmişdir

ki, bu hücumların bəzilərində özəl sektora aid olan subyektlərin iştirakı və cavabdehliyi aydındır və etiraf olunmalıdır.

Qeyri-Dövlət iştirakçılarının əməlləri ilə bağlı digər nümunələrdə hüquq müdafiəçiləri insan hüquqları üzrə fəaliyyətlərinə bilavasitə reaksiya kimi qətllərin, döyülmə hadisələrinin, dini assosiasiyalar, icma və ya tayfa ağsaqqalları və hətta öz ailəsinin üzvləri tərəfindən təhrik edilmiş hədələrin qurbanı olmuşdurlar.

***3. Dövlət və qeyri-dövlət iştirakçılarının müsbət rolu***

Bir çox Dövlətdə insan hüquqlarına hörmət, onların müdafiəsi və həyata keçirilməsi ümumiyyətlə effektiv şəkildə yerinə yetirilir; və demək olar ki, hər bir Dövlətdə təhlükəsizlik və mülki orqanlarda insan hüquqlarını müdafiə etmək üçün çox çalışan və insan hüquq müdafiəçilərinin rolunu yerinə yetirən fərdlər vardır. Bəzi hallarda siyasi məmurlar, hakimlər, Dövlət bürokrasiyasında mülki məmurlar və siyasətçilər digərlərinin insan hüquqlarını müdafiə etmək, ədliyyəni dəstəkləmək və korrupsiyaya son qoymaq üçün böyük riskə məruz qalırlar. Eynilə, bəzi özəl şəxslər insan hüquqları müdafiəçilərinə qarşı pozuntuların günahkarı olduğu halda, digərləri bu kimi aktların aradan qaldırılmasına fundamental yardım göstərirlər. Hüquqlara hörmət edilməsi üçün transmilli korporasiyalar böyük qüvvə ola bilər, bəzi korporasiyalar məşğulluq sahəsində yaxşı siyasətlər qəbul etmiş, təsis olunduqları icmaların iqtisadi və sosial bərpasına töhfə etmişlər. Dini rəhbərlər insan hüquqlarını və insan hüquqları müdafiəçilərinin özlərini müdafiə etmək üçün görülən tədbirlərin çox zaman ön planında durmuşlar.

Bəzi hallarda müsbət və mənfi qeyri-Dövlət iştirakçılarını aydın fərqləndirmək olmur. Biznes maraqları bəzi insan hüquqlarına müsbət töhfə verə bilər, digərlərinə isə mənfi təsir göstərə bilər.

Buna görə də, biznes müəssisələri və digər tərəflərin həyata keçirdikləri fəaliyyətlərin insan hüquqlarına mənfi təsiri ilə bağlı olaraq insan hüquqları müdafiəçiləri tərəfindən qaldırılan məsələlərə həmin tərəflərin necə cavab verdiklərini nəzərdən keçirmək çox vacibdir.

## III. BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI TƏRƏFİNDƏN İNSAN HÜQUQLARI MÜDAFİƏÇİLƏRİNİN MÜDAFİƏSİ VƏ ONLARIN İŞİNİN DƏSTƏKLƏNMƏSİ

Birləşmiş Millətlər Təşkilatı insan hüquq müdafiəçilərinin xeyrinə olan fəaliyyəti aşağıdakı halları nəzərə alaraq hazırlamışdır:

- ❖ Ölkələrdə insan hüquqları üzrə beynəlxalq standartların icrası yüksək dərəcədə fərdlər və qrupların (Dövlətdə, həmçinin ondan kənarda çalışanlar) töhfəsindən asılıdır və insan hüquq müdafiəçilərinə bu dəstək insan hüquqlarına universal hörmətə nail olmaq baxımından fundamental məsələdir;
- ❖ Hökumətlər, milli qanunvericilik, polis, ədliyə sistemi və ümumilikdə Dövlət ölkədə insan hüquqlarının pozulması hallarına qarşı müvafiq müdafiə təmin etmirsə, insan hüquq müdafiəçiləri son müdafiə xəttinə çevrilir;
- ❖ Hüquq müdafiəçiləri insan hüquqları sahəsində çalışdığına görə özləri çox zaman insan hüquqlarının pozulması hədəfinə çevrilir və  müdafiəyə ehtiyaç duyurlar.

Insan hüquq müdafiəçilərinin mühüm rolunun tanınması və onların bir çoxunun pozuntu halları ilə üzləşməsi Birləşmiş Millətlər Təşkilatını inandırmışdır ki, həm müdafiəçilərin, həm də onların fəaliyyətinin müdafiə olunmasına ehtiyac var.

İlk əsas addım rəsmən insan hüquqlarının “müdafiəsini” hüquq kimi müəyyən etmək və “insan hüquq müdafiəçiləri” kimi insan hüquqları işini yerinə yetirən insanları tanımaqdır. 9 dekabr 1998-ci il tarixli 53/144 saylı qətnaməsi ilə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası Universal olaraq qəbul edilmiş insan hüquqları və fundamental azadlıqların təşviqi və müdafiəsi üzrə fərdlərin, qrupların və cəmiyyət orqanlarının hüquq və cavabdehliklərinin hüquq və vəzifələrinə dair Bəyannamə qəbul etmişdir (hamı tərəfindən “İnsan hüquq müdafiəçilərinə dair Bəyannamə” kimi tanınır). İkinci addım 2000-ci ilin aprel

ayında atılmış, bu zaman Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Komissiyası Bəyannamənin yerinə yetirilməsinə nəzarət edəcək və onu dəstəkləyəcək insan hüquq müdafiəçiləri üzrə xüsusi nümayəndənin təyin edilməsini Baş Katibdən xahiş etmişdir.

## A. İnsan Hüquq Müdafiəçilərinə dair Bəyannamə

İnsan hüquq müdafiəçilərinə dair Bəyannamə üzərində iş 1984-cü ildə başlamış, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin əllinci il dönümü münasibətilə 1998-ci ildə Baş Assambleya tərəfindən mətnin qəbul edilməsi ilə başa çatmışdır. Insan hüquqları üzrə bir sıra qeyri-hökumət təşkilatlarının və bəzi Dövlət nümayəndəliklərinin kollektiv şəkildə göstərdiyi cəhdlər yekun nəticədə mətnin güclü, çox faydalı və praqmatik olmasına yardım etdi. Yəqin ki, ən əhəmiyyətlisi odur ki, Bəyannamə tək Dövlətlərə və insan hüquq müdafiəçilərinə deyil, hamıya müraciət edir. Burada hamının insan hüquq müdafiəçiləri roluna malik olması və hər birimizin cəlb olunduğu qlobal insan hüquqları hərəkatının mövcud olduğu vurğulanır.

### *1. Hüquqi xüsusiyyət*

Bəyannamə öz-özlüyündə hüquqi baxımdan məcburi alət deyildir. Ancaq burada Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt kimi hüquqi baxımdan icbari olan digər beynəlxalq alətlərdə qorunan insan hüquqları standartlarına əsaslanan bir sıra prinsip və hüquqlar vardır. Bundan başqa, Bəyannamə həmrəyliklə Baş Assambleya tərəfindən qəbul edilmiş, buna görə də onun icrasına dair Dövlətlərin götürdüyü çox güclü öhdəliyi təmsil edir. Dövlətlər Bəyannaməni icbari milli qanunvericilik kimi qəbul etmək barədə getdikcə daha çox düşünür.

### *2. Bəyannamənin müddəaları*

Bəyannamə insan hüquq müdafiəçilərinin işi konteksitində onların dəstəklənməsi və qorunmasını nəzərdə tutur. Burada yeni hüquqlar formalaşmır, bunun əvəzinə mövcud hüquqlar elə şəkildə ifadə olunur ki, onlar insan hüquq müdafiəçilərinin

praktiki rolu və vəziyyətində daha asan yolla tətbiq edilə bilsin. Məsələn, burada insan hüquq müdafiəçilərinin təşkilatlar tərəfindən maliyyələşdirilməsi, insan hüquqları üzrə standartlara və onların pozulması hallarına dair informasiyanın toplanması və mübadiləsi məsələlərinə diqqət yetirilir. Bəyannamədə insan hüquqlarının müdafiəsinə dair Dövlətlərin bəzi konkret funksiyaları və hər kəsin cavabdehlikləri verilir, əlavə olaraq Bəyannamənin milli qanunvericiliklə əlaqəsi izah olunur. Bəyannamənin müddəalarından əksəriyyəti aşağıdakı paraqraflarda icmal edilir[5]. Təkrar qeyd etmək lazımdır ki, Bəyannaməyə əsasən insan hüquq müdafiəçiləri dinc fəaliyyət göstərmək üçün öhdəlik götürmüşlər.

*(a) İnsan hüquq müdafiəçiərinə verilən hüquq və müdafiə vasitələri*

Bəyannamənin 1, 5, 6, 7, 8, 9, 11, 12 və 13 maddələrində insan hüquq müdafiəçiləri üçün xüsusi qoruma vasitələri, o cümlədən hüquqlar nəzərdə tutulur:

- ❖ Milli və beynəlxalq səviyyələrdə insan hüquqlrının qorunması və həyata keçirilməsi;
- ❖ İnsan hüquqları sahəsində işi fərdi və digərləri ilə birgə yerinə yetirmək;
- ❖ Assosiasiya və qeyri-hökumət təşkilatları təşkil etmək;
- ❖ Dinc şəkildə görüşmək və ya toplaşmaq;
- ❖ İnsan hüquqları ilə bağlı informasiya axtarmaq, əldə etmək, qəbul etmək və saxlamaq;
- ❖ İnsan hüquqları ilə bağlı yeni ideya və prinsiplər hazırlamaq və müzakirə etmək;
- ❖ İctimai məsələlərlə məşğul olan hökumət qurum, agentlik və təşkilatlara onların funksiyalarının yaxşılaşdırılması

[5] Bəyannaməyə dair daha ətraflı şərhlər Baş Katibin İnsan Hüquqları Komissiyasına 2000-ci ildə keçirilmiş əlli altıncı sessiyada təqdim etdiyi hesabatda verilmişdir (E/CN.4/2000/95). Hesabatda həm də Bəyannamənin icrasına dair təkliflər müəyyən edilmişdir.

və onların diqqətini onların işində insan hüquqlarının reallaşdırılmasına mane ola biləcək istənilən aspektə cəlb etmək üçün tənqidi təhlil və təkliflər vermək;

- İnsan hüquqları ilə bağlı rəsmi siyasət və aktlar barədə şikayətlər vermək və bu kimi şikayətlərə nəzər salmaq;
- İnsan hüquqlarının müdafiəsində peşəkar baxımdan səriştəli hüquqi yardım və ya hər hansı məsləhət və yardım təklif və təmin etmək;
- Milli qanunvericilik və insan hüquqları sahəsində beynəlxalq öhdəliklərə uyğunluğu yoxlamaq üçün açıq məhkəmə işlərinə, proses və məhkəmələrə getmək;
- Qeyri-hökumət və hökumətlərarası təşkilatlara çıxışı və onlarla kommunikasiyanı təmin etmək;
- Səmərəli müdafiə vasitəsindən faydalanmaq;
- Qanuna uyğun şəkildə insan hüquq müdafiəçisinin fəaliyyətini yerinə yetirmək və ya peşəsi ilə məşğul olmaq;
- Dinc vasitələrlə insan hüquqlarının pozulması baş verən Dövlətə aid olan akt və ya səhvlərə qarşı və ya əks olan milli qanunla səmərəli müdafiə ilə təmin olunmaq;
- İnsan hüquqlarının qorunması məqsədi ilə resurslar tələb etmək, qəbul etmək və istifadə etmək (o cümlədən xaricdən gələn vəsaitləri qəbul etmək).

*(b) Dövlətlərin vəzifələri*

Dövlətlərin Bəyannamələrin bütün müddəalarını yerinə yetirmək və onlara hörmət etmək kimi cavabehliyi vardır. Ancaq 2, 9, 12, 14 və 15 maddələrində Dövlətin roluna xüsusi istinad edilir və qeyd edilir ki, hər bir Dövlətin cavabdehliyi və vəzifəsi vardır:

- Bütün insan hüquqlarını qorumaq, təşviq etmək və icra etmək;
- Öz yurisdiksiyasında olan bütün şəxslərin təcrübədə bütün sosial, iqtisadi, siyasi və digər hüquq və azadlıqlarından istifadə edə bilməsi;

- ❖ Hüquq və azadlıqların səmərəli icrasını təmin etmək üçün zəruri ola biləcək qanunvericilik, inzibati və digər addımları qəbul etmək;
- ❖ İnsan hüquqları pozuntusuna məruz qaldığını iddia edən insanlar üçün səmərəli hüquq müdafiə vasitələrini təmin etmək;
- ❖ İnsan hüquqlarının iddia edilən pozuntusu hallarını dərhal və qərəzsiz şəkildə araşdırmaq;
- ❖ Bəyannamədə istinad edilmiş hüquqların qanunauyğun şəkildə həyata keçirilməsi nəticəsində baş verən zorakılıq, hədə-qorxu, cəza, düşməncəsinə ayrı-seçkilik, təzyiq və ya hər hansı digər ixtiyari əmələ qarşı hər kəsin müdafiə edilməsi üçün bütün zəruri tədbirləri görmək;
- ❖ Mülki, siyasi, iqtisadi, sosial və mədəni hüquqların ictimaiyyət tərəfindən anlaşılmasını təşviq etmək;
- ❖ Ombudsman və ya insan hüquqları müvəkkili kimi insan hüquqlarının təşviqi və qorunması üçün müstəqil milli qurumların təsis edilməsini və inkişaf olunmasını təmin etmək və dəstəkləmək;
- ❖ Rəsmi təhsil və peşə təhsilinin bütün səviyyələrində insan hüquqları mövzusunun tədrisinin təşviq olunması və dəstəklənməsi.

*(c) Hər kəsin cavabdehlikləri*

Bəyannamədə vurğulanır ki, hər kəsin icmada və onun qarşısında vəzifələri var və bizim hər birimizin insan hüquq müdafiəçisi olmağımız təşviq edilir.

İnsan hüquqlarını təşviq etmək, demokratiyanı və onun qurumlarını qorumaq, digərlərinin insan hüquqlarını pozmamaq üçün hər kəsin cavabdehlikləri 10, 11 və 18-ci maddələrdə müəyyən edilir. 11-ci maddədə digərlərinin insan hüquqlarına təsir edə biləcək peşələrlə məşğul olan şəxslərin cavabdehliklərinə xüsusi istinad edilir və bu xüsusilə siyasi məmurlara, vəkil, hakim və s. üçün münasibdir.

*(d) Milli qanunvericiliyin rolu*

3 və 4-cü maddələrdə insan hüquqları sahəsində mümkün dərəcədə ən yüksək səviyyədə hüquqi standartların təmin edilməsi üçün Bəyannamənin milli və beynəlxalq hüquqla əlaqəsi müəyyən edilir.

## B. Baş Katibin insan hüquq müdafiəçiləri üzrə Xüsusi Nümayəndəsi

26 aprel 2000-ci il tarixli 2000/61 saylı qətnaməsində İnsan Hüquqları Komissiyası insan hüquq müdafiəçilərinin xüsusi nümayəndəsinin təyin edilməsi üçün Baş Katibə müraciət etmişdir. Komissiyanın niyyəti Bəyannamənin icrasını dəstəkləmək və dünyada olan insan hüquq müdafiəçilərinin vəziyyətinə dair məlumat toplamaq olmuşdur. 2000-ci ilin avqust ayında Baş Katib tərəfindən bu vəzifəyə ilk dəfə olaraq xanım Hina Cilani təyin edilmişdir.

***1. Xüsusi Nümayəndənin rəsmi mandatı***

Xüsusi Nümayəndə istənilən Dövlətdə tam müstəqil şəkildə fəaliyyət göstərir, o, Birləşmiş Millətlər Təşkilatının əməkdaşı deyil və məvacib almır. İnsan Hüquqları üzrə Komissiyasının 2000/61 saylı qətnaməsinin 3-cü paraqrafında müəyyən edildiyi kimi Xüsusi Nümayəndənin mandatına aşağıdakı əsas fəaliyyətin aparılması daxildir:

(a) Fərdi şəkildə və ya digərləri ilə birlikdə fəaliyyət göstərən istənilən şəxsin vəziyyəti və hüquqları barədə məlumat axtarmaq, qəbul etmək, yoxlamaq və cavab vermək, insan hüquqları və fundamental azadlıqları təşviq və müdafiə etmək;

(b) Bəyannamənin təşviqi və səmərəli icrası istiqamətində Hökumətlər və digər maraqlı tərəflərlə əməkdaşlıq qurmaq və dialoq aparmaq;

(c) İnsan hüquq müdafiəçilərini daha yaxşı müdafiə etmək üçün səmərəli strategiyalar tövsiyyə etmək və bu tövsiyyələri izləmək;

İnsan Hüquqları Komissiyası bütün Hökumətləri Xüsusi Nümayəndə ilə əməkdaşlıq etməyə və ona yardım göstərməyə, müraciət edilən bütün məlumatları təmin etməyə çağırmışdır. Xüsusi Nümayəndənin Komissiyaya və Baş Assambleyaya illik hesabatlar verməsi tələb olunmuşdur.

***2. Xüsusi Nümayəndənin praktiki fəaliyyəti***

Xüsusi Nümayəndənin rəsmi mandatı çox geniş olub, onun həyata keçirilməsi üçün strategiyaların, prioritet və fəayyətin müəyyən edilməsini tələb edir. İnsan hüquq müdafiəçilərinin "qorunması" Xüsusi Nümayəndənin birinci dərəcəli məsələsidir. Müdafiə dedikdə müdafiəçilərin özlərinin müdafiəsi və insan hüquqlarını qorumaq üçün onların hüquqlarının müdafiəsi başa düşülür.

Xüsusi Nümayəndə mandatının qlobal xüsusiyyətinə uyğun olaraq eyni standartların bərabər şəkildə hər bir Dövlətə tətbiq edilməsi üçün əlindən gələni edir. Bir sıra geniş fəaliyyət növləri aparılır, baxmayaraq ki, çox zaman onlar arasında müəyyən dərəcədə təkrarlanmaya da yol verilir, beləki bəzi fəaliyyətlər müxtəlif sayda məqsədlər daşıyır.

*(a) Insan hüquq mühafizəçiləri ilə əlaqələr*

İlk əvvəl və ən önəmlisi Xüsusi Nümayəndə aşağıdakı yollarla insan hüquq müdafiəçiləri üçün əlyetərli olmağa çalışır:

- ❖ Müdafiəçilərdən informasiya, o cümlədən onlara qarşı törədilmiş insan hüquqlarının pozulması hallarına dair iddiaları qəbul edə bilməsi (aşağida "(d) Fərdi hallar"a bax) və Dövlətlər qarşısında qaldırılacaq məsələlərin müəyyən edilməsində bu informasiyadan istifadə etməsi;
- ❖ Dünyadakı müdafiəçilərlə əlaqə saxlamaq üçün imkan yaradan milli, regional və beynəlxalq insan hüquqları tədbirlərində (o cümlədən İnsan Hüquqları Komissiyasının illik sessiyasında) müntəzəm şəkildə iştirak etməsi.

*(b) Dövlətlərlə Əlaqələr*

Xüsusi Nümayəndə Dövlətlərlə müntəzəm şəkildə əlaqə saxlayır. Cenevrədə İnsan Hüquqları Komissiyasının və Nyu-Yorkda Baş Assambleyanın illik sessiyaları kimi forumlar vasitəsilə ümumi əlaqələr saxlanır ki, bu müddətdə Xüsusi Nümayəndə Dövlətlərə illik hesabatlar verir, onların suallarına cavab verir və narahatlıq doğuran məsələləri, o cümlədən fərdi halları müzakirə etmək üçün fərdi Dövlət nümayəndəlikləri ilə görüşə bilər.

Daha konkret əlaqələr görüşlərdə və ya yazılı şəkildə ikitərəfli əsasda aparılır, ayrı-ayrı Dövlətlərlə narahatlıq doğuran konkret məsələlərin qaldırılmasında istifadə edilir və, məsələn, məhkəmə halının ünvanlanmasında və ya səfər üçün dəvətin alınmasında Dövlətin yardım göstərməsinə çalışır.

*(c) Digər əsas iştirakçılarla əlaqələr*

Xüsusi Nümayəndə il ərzində mandatı və fəaliyyətinə müvafiq olan bir sıra digər iştirakçılarla, o cümlədən milli parlamentlər; regional hökumətdaxili təşkilatlar; və insan hüquq müdafiəçilərinin rolu və vəziyyətinin təkmilləşdirilməsində öhdəliyi olan Dövlətlər qrupu ilə görüşlər keçirir.

*(d) Fərdi hallar*

Xüsusi Nümayəndə insan hüquq müdafiəçilərinə qarşı törədilmiş insan hüquqlarının pozulması ilə bağlı fərdi halları müvafiq Dövlətlərlə müzakirə edir. Bu hallara dair informasiya müxtəlif mənbələrdən, o cümlədən Dövlət orqanlarından, qeyri-hökumət təşkilatlarından, Birləşmiş Millətlər Təşkilatı agentliklərindən, media və ayrı-ayrı insan hüquq müdafiəçilərindən alınır. İnformasiya əldə edildikdə Xüsusi Nümayəndə ilk əvvəl bu məlumatın onun mandatına aid olub-olmadığını müəyyən edir. İkincisi, insan hüquqlarının pozulması iddialarının mümkün tutarlılığını və informasiya mənbəyinin etibarlılığını müəyyən etmək üçün hər bir cəhd göstərir. Üçüncüsü, Xüsusi Nümayəndə iddia olunan pozuntu halının baş verdiyi Dövlətin Hökuməti ilə əlaqələr saxlayır. Adətən

Cenevrədə Birləşmiş Millətlər Təşkilatına təyin edilmiş diplomatik missiyaya surəti göndərilən Dövlətin Xarici İşlər Nazirliyinə ünvanlanmış "təcili tədbir" və ya "təsdiqləmə" məktubu ilə əlaqə saxlanılır. Məktubda zərər çəkmiş şəxsin, insan hüquqları ilə bağlı məsələlərin və iddia edilən hadisələrin təfərrüatları verilir. Məktubda əsas məqsəd Dövlət orqanlarını iddia barədə mümkün olan ən tez zamanda məlumatlandırmaqdır ki, onların işi araşdırması və insan hüquqlarının pozulmasına son qoyması və ya qarşısının alınması imkanı olsun.

- "Təcili tədbir" məktubları baş verdiyi və ya baş verəcək ehtimalı olduğu pozuntu

halları barədə informasiyanın ötürülməsi üçün istifadə edilir. Məqsəd müvafiq Dövlət orqanlarının mümkün olan ən qısa zamanda vəziyyət barədə məlumatlandırılması və beləliklə onların pozuntu halına son qoymaq və ya onun qarşısını almaq üçün müdaxilə edə bilməsidir. Məsələn, insan hüquq vəkilinin insan hüquqları sahəsindəki işinə cavab olaraq ölümlə hədələmənin edildiyi iddiası təcili tədbir məktubu ilə ünvanlanır.

- "Təsdiqləmə" məktubları artıq baş vermiş və insan hüquq müdafiəçisinə onun göstərdiyi təsirin dəyişməyəcəyi pozuntu halları barədə məlumatın ötürülməsi üçün istifadə edilir. Bu növ məktubdan, məsələn, məlumatın insan hüquqlarının pozuntusu halı artıq baş verdikdən və haqqında qərar alınındıqdan uzun zaman sonra Xüsusi Nümayəndəyə informasiyanın verildiyi hallarda istifadə edilir. Məsələn, insan hüquq müdafiəçisi öldürüldüyü halda məsələ təsdiqləmə məktubu vasitəsilə Dövlət qarşısında qaldırılmalıdır.

Hər iki növ məktubda Xüsusi Nümayəndə aidiyyatı Hökumətin iddia edilən halları araşdırması və ünvanlaması üçün hər növ müvafiq tədbir görməsini, araşdırma və tədbirlərin nəticələrini ötürməsini istəyir. Təsdiqləmə məktubları əsasən Dövlət orqanlarının hallarını araşdırmasını, cavabdeh olanların cinayət təqibini aparmasını

xahiş edir. Hökumətlərə göndərilən məktublar məxfi olub, Xüsusi Nümayəndə konkret hallar barədə Hökumətlərlə aparılan yazışmalar haqqında illik hesabatı hesabat ilinin sonunadək İnsan Hüquqları Komissiyasına təqdim edənə qədər məxfi qalır.

Xüsusi Nümayəndə Birləşmiş Millətlər Təşkilatının xüsusi məruzəçiləri ilə daim məsləhətləşmələr aparır ki, onların mandatı konkret hallara aid olur və həmin mandat sahibləri ilə birlikdə tez-tez birgə məktublar göndərir. Bu Məlumat Vərəqəsində Əlavə II-də Xüsusi Nümayəndənin halla bağlı tədbir görməsi üçün hansı növ informasiyaya ehtiyacı olduğuna və informasiyanın necə təqdim edilməsinə dair təlimatlar verilir.

*(e) Ölkəyə səfərlər*

Xüsusi Nümayəndənin Dövlətlərə rəsmi səfərləri baş tutur. Bəzi Dövlətlər açıq dəvətmamələr vermiş, digər hallarda Xüsusi Nümayəndə dəvətnamənin vaxtının uzadılması üçün Hökumətə müraciət edər. Bu səfərlər ölkədə insan hüquq müdafiəçilərinin rolu və vəziyyətini təfərrüatları ilə yoxlamaq imkanı verir, məqsəd konkret problemləri müəyyən etmək və onların necə həll edilə biləcəyinə dair tövsiyyələr verməkdir. Mandatının mahiyyətinə görə Xüsusi Nümayəndə ölkədə insan hüquq müdafiəçilərinin vəziyyətinə kritik nöqteyi-nəzərdən baxmalıdır. Ancaq proses zamanı müstəqil və qərəzsiz qiymətləndirmənin aparılması nəzərdə tutulur ki, həm müdafiəçilərin insan hüquqlarına töhfəsinin, həm də onların müdafiəsinin qüvvətləndirilməsində bütün iştirakçılar tərəfindən istifadə ediləcəkdir.

Ölkəyə baş tutan səfərlər adətən 5-10 günlük olur ki, bu müddətdə Xüsusi Nümayəndə digər tərəflərlə yanaşı Dövlətin Hökuməti, müvafiq hökumət nazirləri, insan hüququ üzrə müstəqil qurumlar, Birləşmiş Millətlər Təşkilatının agentlikləri, media və insan hüquq müdafiəçilərinin özləri ilə görüşlər keçirir.

Belə səfərlər zamanı aşağıdakı məsələlər müzakirə edilir: insan hüquq müdafiəçilərinə qarşı törədilən pozuntu halları; insan hüquq

müdafiəçilərinin insan hüququ sahəsində gördükləri iş mühiti, o cümlədəm birləşmək və fikir azadlığı, yerli qanunvericiliklə müdafiəçilərin maliyyələşmə ilə təmin edilməsi və onlara yardımın göstərilməsi; insan hüquq müdafiəçilərinin hüquq pozuntusu hallarından qorunması istiqamətində hakimiyyət orqanlarının göstərdiyi cəhdlər.

Hər səfərdən bir neçə ay sonra Xüsusi Nümayəndə səfərə dair hesabat hazırlayır ki, buraya digər məsələlərlə yanaşı, əsas narahatedici məsələlər və tədbir görmək üçün tövsiyyələr daxil olur. Sonradan hesabat İnsan Hüquqları Komissiyasının növbəti sessiyasında rəsmən Xüsusi Nümayəndə tərəfindən təqdim edilir.

*(f) Seminar və konfranslar*

Hər il Xüsusi Nümayəndə insan hüquq müdafiəçilərinin əsas mövzusu ətrafında və ya müdafiəçilər üçün demokratikləşmə kimi müvafiq olan daha geniş mövzular ətrafında seminar və konfranslar daxil olmaqla, bir sıra tədbirlər təşkil edilir. Bu tədbirlər Dövlətlər, Birləşmiş Millətlər Təşkilatı, akademik qurumlar, qeyri-hökumət təşkilatları və ya digər iştirakçılar tərəfindən təşkil edilə bilər.

*(g) Strategiyalar*

Xüsusi Nümayəndə insan hüquq müdafiəçilərinin dünyadakı rolu və vəziyyəti ilə fundamental əlaqəsi olan mövzuları müəyyən edərək, həmin sahələrdə xüsusi olaraq fəaliyyət göstərməklə müdafiəçiləri dətəkləməyə çalışa bilər. Bu kimi bəzi mövzular demokratikləşmə prosesləri, yerli hakimiyyət orqanlarının cavabdehlikləri, təhlükəsizlik və ya anti-terror qanunvericiliyinin insan hüquq müdafiəçilərinə təsiri məsələlərdir. Müdafiəçilərin dəstəklənməsi üçün bir ardıcıl strategiya onlar üçün regional müdafiə şəbəkələrinin qurulması və qüvvətləndirilməsi olmuşdur.

*(h) Hesabatlar*

Xüsusi Nümayəndənin mandatı ilə tələb olunan İnsan Hüquqları Komissiyasına və Baş Assambleyaya illik hesabatlarında illik fəaliyyət barədə məlumatlar verilir, il ərzində müəyyən edilmiş

ilkin tendensiya və narahatlıq doğuran məsələlər təsvir edilir, bu məsələlərin necə ünvanlanması üçün tövsiyyələr verilir. Bəzi hesabatlarda narahatlıq doğuran əsas mövzular, məsələn, təhlükəsizlik haqqında qanunvericiliyin insan hüquq müdafiəçilərinə və onların işinə təsiri nəzərdən keçirilir. Hesabatlar konkret ölkələr və regionlarda müdafiəçilərin üzləşdiyi problemlərin, eləcə də qlobal problemlərin xüsusi mövzularının çox faydalı göstəriciləridir. Hər hesabatda verilən tövsiyyələr Dövlətlər, Birləşmiş Millətlər Təşkilatı agentlikləri, insan hüquq müdafiəçilərinin özləri, özəl sektor və digər iştirakçılar tərəfindən tədbirin görülməsi üçün əsas təmin edir.

Xüsusi Nümayəndənin hesabatları Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığının internet səhifəsində (www.ohchr.org) yerləşdirilir. Yuxarıda qeyd edilən bütün növ fəaliyyətin məqsədi insan hüquq müdafiəçilərinin qorunmasına və Bəyannamənin həyata keçirilməsinə töhfə verməkdir.

### *3. Logistika və resursların idarə olunması – İHAK-ın rolu*

Birləşmiş Millətlər Təşkilatının xüsusi məruzəçiləri[6] kimi Xüsusi Nümayəndənin ancaq məhdud resurslara çıxışı vardır. Strategiya və fəaliyyət müvafiq şəkildə uyğunlaşdırılmalıdır.

Xüsusi Nümayəndə Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığından mandatın icrasında xüsusilə də müvafiq "bölmə rəhbər(lər)i"[7] vasitəsilə böyük yardım alır. Bunlar İHAK-ın Cenevrədə fəaliyyət göstərən heyət üzvləridir ki, mandat sahiblərinin təlimatları ilə İnsan Hüquqları Komissiyası tərəfindən müəyyən edilmiş tematik mandatların gündəlik fəaliyyətinin idarə olunması üçün cavabdehlik daşıyırlar. Məsələn, İHAK bölmə rəhbərləri insan hüquq müdafiəçilərinə qarşı törədildiyi iddia edilən pozuntu hallarına dair məlumatları müntəzəm olaraq qəbul edir. Onlar hesabatların hazırlanmasında Xüsusi Nümayəndəni dəstəkləyir, ölkəyə səfərlərin

[6] BMT-nin xüsusi məruzəçilərinə dair əlavə məlumat üçün 27 saylı Məlumat Vərəqəsinə baxın.

[7] Resursların mövcudluğundan asılı olaraq, Xüsusi Nümayəndəyə bir neçə nəfər yardım göstərə bilər.

hazırlanmasında və keçirilməsində yardım göstərir. Səfirliklər, qeyri-hökumət təşkilatları və Birləşmiş Millətlər Təşkilatının heyəti tərəfindən mandata uyğun gündəlik əsaslı kənar əlaqələr əsasən bölmə rəhbərləri ilə olan əlaqələr vasitəsilə saxlanılır. İHAK-ın İnzibati Xidmətləri səfər və digər fəaliyyətin təşkil edilməsində və maliyyələşdirilməsində dəstək göstərir.

Ölkəyə ildə iki dəfə rəsmi səfər etməsi, İnsan Hüquqları Komissiyasının və Baş Assambleyanın iclaslarında iştirak etməsi, Cenevrədə aparılan məsləhətləşmələrə getməsi üçün BMT-nin büdcəsindən Xüsusi Nümayəndə üçün kiçik məbləğdə maliyyə vəsaitləri təmin edilir. Nadir hallarda BMT qurumları və QHT-lər seminarların keçirilməsi, tədqiqat hesabatlarının nəşr edilməsi və mandatla bağlı olan digər ümumi xarakterli tədbirlərin görülməsi üçün əlavə resurslar təmin edir. Məlumat Vərəqəsində əlavə II-yə Xüsusi Nümayəndə ilə əlaqənin saxlanmasına dair məlumat daxil edilmişdir ki, burada insan hüquq müdafiəçilərinə qarşı iddia edilən pozuntu halları barədə məlumatın çatdırılması üçün təlimatlar verilir.

## IV. İNSAN HÜQUQ MÜDAFİƏÇİLƏRİ ÖZ İŞİNDƏ NECƏ DƏSTƏKLƏNİB MÜDAFİƏ OLUNA BİLƏRLƏR?

Insan hüquqlarının pozulmasında ən ciddi halların hüquq müdafiəçilərinə qarşı tətbiq edilməsi halının davam etməsi faktı onu göstərir ki, onların rolunu dəstəkəmək və onları zərərdən qorumaq üçün çox işlər görülməlidir. Bu fəsildə Bəyannamənin icra edilməsi üçün görülə biləcək və yerli, milli, regional və beynəlxalq səviyyələrdə hüquq müdafiəçilərini dəstəkləyəcək və müdafiə edəcək tədbirlərə dair bir sıra təkliflər verilir. Bu təkliflər Dövlətlərə, hüquq müdafiəçilərinin özlərinə, vətəndaş cəmiyyətinə, Birləşmiş Millətlər Təşkilatına və bəzi hallarda özəl sektora və digər iştirakçılara ünvanlanır. Onlar görüləcək işlərin hərtərəfli siyahısını müəyyən etmir, ancaq hər region və ölkənin ehtiyaclarına uyğun olaraq hazırlana biləcək daha konkret tədbirlər və strategiyalar üçün

baza təmin edirlər[8]. Müxtəlif təkliflərə aşağıdakılar daxildir:

- ❖ İfadə və birləşmə azadlığı hüquqları da daxil olmaqla hüquq müdafiəçilərinin işi və onların müdafiəsi üçün qanunvericilik bazası;
- ❖ Təcrübədə qanunvericilik və məhkəmələr tərəfindən müdafiə;
- ❖ Təlim və informasiyaya çıxış;
- ❖ Milli və yerli hakimiyyət orqanlarının və Birləşmiş Millətlər Təşkilatının rolu, özəl sektorun nüfuzlu təsiri;
- ❖ Media və vətəndaş cəmiyyətinin qeyri-rəsmi şəbəkələri vasitəsilə hüquq müdafiəçilərinin vəziyyətinə dair məlumatların monitorinqi və yayılması;
- ❖ Hüquq müdafiəçilərinin xaricdə müdafiəsi və dəstəklənməsi;
- ❖ Hüquq müdafiəçilərindən tələb olunan cavabdehliklər və yüksək standartlar.

Bir daha vurğulamaq vacibdir ki, hüquq müdafiəçilərini dəstəkləmək və onları qorumaq üçün göstərilən cəhdlər insan hüququ standartlarının icrasını təmin etməyə yardım edəcəkdir. Müdafiəçilərin qorunması və onların öz işində dəstəklənməsi dövlətlərin insan hüquq strategiyalarında, ümumiyyətlə BMT-nin işində və müvafiq qeyri-hökumət təşkilatlarının işində əsas məsələ olmalıdır.

Hüquq müdafiəçilərinə dəstək inkişaf, demokratikləşmə və oxşar proseslər kontekstində bütün beynəlxalq əməkdaşlığın ayrılmaz aspekti olmalıdır.

[8] Tədbir üçün əlavə tövsiyələr 200-ci ildə Baş Katibin İnsan Hüquqları Komissiyasına verdiyi hesabatda (E/CN.4/2000/95) və Xüsusi Nümayəndənin Baş Assambleyaya (A/56/341, A/57/182 və A/58/380, əlavə) və İnsan Hüquqları Komissiyasına (E/CN.4/2001/94, E/CN.4/2002/106 və Add.1 və 2 və E/CN.4/2003/104 və Add.1-4) verdiyi hesabatlarda göstərilmişdir. Xüsusi Nümayəndənin bu və gələcək hesabatları İHAK-ın internet səhifəsindən (www.ohchr.org) “Index” vasitəsilə əldə edilə bilər.

## A. Dövlətlər tərəfindən Fəaliyyət

1998-ci ildən başlayaraq hüquq müdafiəçilərinə dair Bəyannamə üzrə Baş Assambleyanın illik qətnamələri bütün Dövlətləri Bəyannaməni təşviq etmək və onu qüvvəyə mindirməyə çağırmışdır[9]. 2000-ci ildən başlayaraq Kommissiyanın İnsan Hüquqları üzrə illik qətnamələri də bütün Dövlətləri Bəyannaməni icra etməyə və Xüsusi Nümayəndə ilə əməkdaşlıq edib ona yardım göstərməyə çağırmışdır.[10] Bu qətnamələr ayrı-ayrı Dövlətlər və beynəlxalq icma tərəfindən tədbir görmək üçün götürülmüş siyasi öhdəliklərdən bəhs edir. Dövlətlər tərəfindən konkret tədbirlərin görülməsinə dair təkliflər aşağıdakı paraqraflarda müəyyən edilmişdir.

### *1. İnsan hüquq müdafiəçiləri üzrə Bəyannamədən istifadə*

- Yerli qanunvericiliyin Bəyannamə ilə uyğunluğu: yerli qanunvericiliyin hüquq müdafiəçiləri üzrə Bəyannaməsinə uyğunluğunun təmin edilməsi. Qanunvericilikdə müdafiəçilərin maliyyələşməyə çıxışını, onların müstəqilliyini və ya onların birləşmək, toplaşmaq və ifadə azadlıqlarına dair hüquqlarını məhdudlaşdıran müddəaların olmamasına xüsusi diqqətin yetirilməsi.

- Bəyannamə milli hüquq vasitəsi kimi: Bəyannamənin icbari olan milli hüquq vasitəsi kimi qəbul edilməsi insan hüquqları və hüquq müdafiəçiləri üçün dəstək aləti olaraq onun potensialını artıracaqdır. Dövlətin yerli qanunvericiliyə daxil edilməsi onun məhkəmə orqanları tərəfindən tətbiq edilməsini və Dövlət orqanları tərəfindən hörmət bəslənməsini təmin edəcəkdir.

- Bəyannamənin icra edilməsi: Bəyannamənin müddəalarının icra edilməsi, əldə edilmiş tərəqqinin yoxlanması və hansı addımların görüldüyünə və narahatlıqların olduğu

[9] Bax, məsələn, Baş Assambleyanın 19 dekabr 2001 və 18 dekabr 2002-ci il tarixli 56/163 və 57/209 saylı qətnamələri.

[10] Bax İnsan Hüquqları Komissiyasının 26 aprel 2001 və 25 aprel 2002, 24 aprel 2003-cü il tarixli 2000/61 2001/64 və 2002/70 saylı qətnamələri

məsələlərə dair maddələrə dair hər iki ildən bir hesabatın nəşr etməsi. Vətəndaş cəmiyyəti ilə məsləhətləşmələr aparmaqla Bəyannamənin icrası üçün tədbirlər planının hazırlanmasının və nəşr edilməsinin nəzərdən keçirilməsi.

- Bəyannaməyə dair məlumatların yayılması və təlimin keçirilməsi: Məsələn, insan hüquq müdafiəçilərinin özlərini, Dövlət məmurlarını, hökumətlərarası təşkilatlar və medianı hədəfə alan informasiya və təlim proqramları vasitəsilə Bəyannamənin yayılması.

***2. Müdafiə təcrübədə***

- Monitorinq: Hüquq müdafiəçilərinin üzərində işlədikləri hüquq pozuntusu halları və ya onların şəxsən üzləşdiyi hüquq pozuntuları barədə hüquq müdfiəçilərindən məlumat ala bilən milli insan hüquqları müvəkkili kimi güclü, müstəqil və yaxşı mənbəli mexanizmlərin olmasını təmin etmək. Müdafiəçilərə əlavə nəzarət edən və onları müdafiə edən hüquq müdafiəsinin regional monitorinq mexanizminin inkişafını dəstəkləmək.

- Ədliyyə və cəzasızlıq: Hüquq müdafiəçilərinin ədliyyə sisteminin tam müdafiəsindən faydalanmasını və vəziyyətin müvafiq şəkildə təshih edilməsilə onlara qarşı hüquq pozuntusu hallarının tez və tam şəkildə tədqiq edilməsini təmin etmək.

- Yerli hökumətin rolu: Hüquq müdafiəçilərinin dəstəklənməsi və müdafiəsində yerli hökumət orqanlarının rol və cavabdehliklərinin vurğulanması. Bəyannamənin icra edilməsi həm yerli, həm də milli səviyyədə izlənməlidir. Dövlət orqanının mərkəzdən uzaqlaşdırılması proseslərində bilinməlidir ki, insan hüquqlarının qorunması üçün cavabdehlik yerli, eləcə də milli idarəetmənin bir hissəsidir. Yerli hökumət məmurlarının insan hüquqları sahəsində təhsil proqramlarına çıxışı olmalı, insan hüquqları standartlarına hörmət etmək üçün onların cəhdləri milli qurumlar tərəfindən dəstəklənib, təşviq edilməlidir. Bəyannamənin

icrasına dair milli hesabata informasiya təqdim etmələri üçün yerli hakimiyyət orqanlarına müraciət edilməlidir.

- ❖ Xüsusi Nümayəndə ilə Əməkdaşlıq: İnsan hüquq müdafiəçilərinə dair Xüsusi Nümayəndənin, eləcə də İnsan Hüquqları Komissiyası tərəfindən yaradılmış digər xüsusi prosedur mandatlarının ölkəyə səfər etmələri üçün açıq dəvətnamənin verilməsi. Xüsusi Nümayəndənin qaldırdığı məsələlərə dair verilən müraciətləri dərhal cavablandırmaq, Xüsusi Nümayəndənin hesabatlarında verilmiş tövsiyyələri nəzərdən keçirmək.

***3. Ayrı-ayrı dövlət strukturlarının fəaliyyəti***

- ❖ Qanunverici orqan Bəyannamə və insan hüquqları müdafiəçilərinin fəaliyyətini dəstəkləyən qanun layihələrini gündəliyə çıxara bilər; bu cür qanunların qəbul edilməsinə xüsusi diqqət yetirə bilər, məsələn, insan hüquqları müdafiəçilərinin fəaliyyətini lüzumsuz şəkildə məhdudlaşdıran təhlükəsizlik haqqındakı qanunlarda dəyişikliklər edilə bilər; hüquq müdafiəçilərinin fəaliyyətinə nəzarət edəcək parlament komitəsi təsis edilə bilər; müəyyən parlament üzvləri təhdidlərə məruz qalmış hüquq müdafiəçilərini himayə etməyə və ictimaiyyət qarşısında onların adından çıxış etməyə təşviq edilə bilərlər; Bu təşəbbüs ölkə daxilindəki hüquq müdafiəçilərinin adından olduğu kimi, eləcə də onların digər ölkələrdəki həmkarlarının adından irəli sürülə bilər.

- ❖ Dövlət və ya hökümət başçısının administrasiyası insan hüquqları müdafiəçilərinin fəaliyyətinə dəstəyi koordinasiya edə bilər. Bu, digər məsələlərlə yanaşı, hökümət üzvü olan bütün nazirlərin bilavasitə cavabdeh olduqları sahələrlə bağlı insan hüquqları müdafiəçilərinin işinə hər cür dəstək vermələrini təmin edə bilər.

- ❖ Xarici işlər nazirliyi digər ölkələrdə çalışan insan hüquqları müdafiəçilərinin narahatlıqlarının hökümətin xarici siyasəti və beynəlxalq ticarət əməliyyatlarında öz əksini tapmasını

təmin edə bilər; dövlət ərazisinə daxil olmaları və müvəqqəti yaşayış yeri ilə təmin olmalarını asanlaşdırmaqla, digər ölkələrdəki zülmdən qaçan hüquq müdafiəçilərinə dəstək verə bilər. Bəzi ölkələrin hökümətləri insan hüquqları müdafiəçilərinə dair 31 rəsmi qərar qəbul ediblər və öz səfirliklərinə onları xüsusi dəstəklə təmin etmələri barədə təlimat veriblər.

❖ Daxili işlər nazirliyi, polis də daxil olmaqla, bütün daxili işlər orqanları əməkdaşlarının insan hüquqları mövzusunda təlim keçmələri və insan hüquqları müdafiəçilərinin fəaliyyətinə, eləcə də Bəyannamədə müəyyən edilmiş hüquq və öhdəliklərə dəstək olmalarına zəmanət verə bilər.

**B. Vətəndaş cəmiyyəti və özəl sektor da daxil olmaqla, qeyri-dövlət orqanlarının atdıqları addımlar**

❖ Bəyannamə barədə məlumatı təqdim etməklə, insan hüquqları müdafiəçilərinə qarşı törədilmiş hüquq pozuntularını məruzə etməklə və onların apardıqları işə ictimai dəstək qazandırmaqla, kütləvi informasiya vasitələri hüquq müdafiəçilərinə dəstək göstərilməsi baxımından vacib rol oynaya bilərlər. Bu məsələ ilə bağlı KİV-in rolunun artırılması barədə təşəbbüslər media qurumları və başqa qeyri-hökümət təşkilatları tərəfindən irəli sürülməklə, insan hüquqları mövzusundakı təlimlər və ya insan hüquqları üzrə narahatlıqlar barədə təfsilatlı məlumatın əldə edilməsinə mətbuat tərəfindən davamlı imkan yaradılmasını nəzərdə tuta bilər. KİV insan hüquqları müdafiəçilərinə atılan istənilən növ böhtanlara qarşı xüsusi səy göstərə bilər. Söhbət işlətdikləri bəzi qarışıq ifadələrə görə yanlışlıqla terrorçuluqda, cinayət əməlində və ya dövlətə qarşı fəaliyyətdə ittiham olunan hüquq müdafiəçilərindən gedir.

❖ İnsan hüquqları müdafiəçilərinin transmilli korporasiyalara ünvanlandırdıqları əsaslı narahatlıqlar onlar tərəfindən son dərəcə həssas qarşılanmalıdır. Transmilli korporasiyalar

fəaliyyətlərini tənqid edən hüquq müdafiəçilərinin hakimiyyət orqanları tərəfindən təqib edilmələrinə nə açıq şəkildə, nə də dolayı yollarla nail olmamağa və ya bu kimi addımları alqışlamamağa xüsusilə diqqət yetirməlidirlər. Dövlət nümayəndələri ilə ticarət sazişi və başqa məsələlər üzrə danışıqlar apararkən, insan hüquqları müdafiəçilərinə qarşı törədilmiş hüquq pozuntuları barədəki narahatlıqlarını belə şirkətlərin rəsmilərlə görüşdə ifadə etmələri məqsədəuyğun olardı.

❖ İnsan hüquqları müdafiəçilərinə olan münasibətlərini formalaşdırarkən, transmilli korporasiyalar və başqa özəl sektor qurumları insan hüquqları müdafiəçiləri haqqındakı Bəyannamə və BMT Qlobal müqaviləsi proqramının[11] prinsiplərinə istinad edə bilərlər.

❖ Dəstək şəbəkələri: Ümumiyyətlə, insan hüquqları müdafiəçisi hüquq pozuntusu təhlükəsi ilə üzləşdiyi anda, bu barədəki məlumatın dərhal geniş qrup arasında paylaşılmasını təmin etmək məqsədilə, vətəndaş cəmiyyəti məlumat-monitorinq şəbəkəsi yarada bilər (32 11, bax www.unglobalcompact.org). Bu cür monitorinq pozuntuların qarşısını vaxtında almağa yardım edərək, güclü qoruyucu rol oynaya bilər. Şəbəkələrin yerli, milli və regional səviyyədə qurulması daha məqsədəuyğundur. İnsan hüquqları üzrə ixtisaslaşmış beynəlxalq qeyri-hökümət təşkilatları kimi müvafiq beynəlxalq mexanizmlərlə əlaqələrin mövcudluğu da çox vacibdir.

## C. BMT-nin departament, ofis və proqramlarının rolu

BMT Baş Assambleyasının illik iclasında insan hüquqları müdafiəçilərinə dair Bəyannamə ilə bağlı qəbul edilən qətnamələr Birləşmiş Millətlərin bütün əlaqədar agentlik və təşkilatlarını öz mandatları çərçivəsində insan hüquqları müdafiəçiləri üzrə xüsusi nümayəndəni mümkün olan tam yardım və dəstəklə təmin

[11] www.unglobalcompact.org səhifəsinə baxın

etmələrini təvəqqe edir. Bununla yanaşı, BMT İnkişaf proqramında insan hüquqlarının əsas rol oynamasının baş katib tərəfindən dəstəklənməsi, BMT-də islahatlar prosesi və 2000-ci ildə keçirilmiş Minilliyin sammitində üzv Dövlətlər tərəfindən qəbul edilmiş inkişaf hədəflərinə nail olmağı nəzərdə tutan Minillik kampaniyası kimi BMT təşəbbüsləri silsiləsi insan hüquqları standartlarının tətbiq edilməsində BMT-nin ciddi müdaxiləsini alqışlayır, bəzi hallarda isə bunu zəruri edir. BMT "Country Teams" (Ölkə üzrə komandası) missiyası ilə insan hüquqları müdafiəçilərinin rolu və hədəfləri arasında sıx əlaqələr vardır. Faktiki olaraq, BMT xüsusi nümayəndəsi İnsan hüquqları komissiyasına dair 2003-cü il tarixli məruzədə qeyd edir ki, bir çox BMT əməkdaşlarının özləri insan hüquqları müdafiəçisi qismində çıxış edirlər və çox vaxt Birləşmiş Millətlərin müəyyən ölkələr üzrə əsas tərəfdaşları olurlar.[12] Beləliklə, BMT sistemi, xüsusilə də BMT "Country Teams" missiyası tərəfindən insan hüquqları müdafiəçilərinə dair Bəyannaməyə verilən dəstək Təşkilatın əsas hədəflərinin dəstəklənməsi deməkdir.

### *1. Ölkə səviyyəsində*

BMT "Country Teams" missiyası Bəyannamədən irəli gələn qaydaların həyata keçirilməsi və öz mandatı çərçivəsində insan hüquqları müdafiəçilərini dəstəklə təmin etmək üçün aktiv olmalıdır. Xüsusi fəaliyyət aşağıdakıları nəzərdə tuta bilər:

- ❖ Bəyannamənin təşviqi, onun yayılması və yerli dillərə tərcümə edilməsi, milli qanunvericiliyin Bəyannamədən irəli gələn qaydalara uyğunlaşdırılması;
- ❖ BMT-nin ölkələrdəki ofislərinin rəhbərləri ilə həmin ölkələrdə çalışan insan hüquqları müdafiəçiləri (həm vətəndaş cəmiyyəti, həm də dövləti təmsil edənlər daxil olmaqla) arasında xüsusi görüşlərin təşkili, həmin görüşlər zamanı hüquq müdafiəçilərinə insan hüquqlarının vəziyyəti ilə bağlı narahatlıqlarını və BMT agentlikləri, proqramları və ya əlaqədar idarələrinin mandatına uyğun olan müvafiq tövsiyələr vermə imkanının yaradılması;

[12] E/CN.4/2003/104, maddələr 5 və 54.

- ❖ BMT-nin ölkə mandatı çərçivəsində insan hüquqlarının vəziyyəti ilə bağlı narahatlıqlar barədə müvafiq qeydlərin aparılması və bu məsələlərin aidiyyatı dövlət orqanlarının nümayəndələri ilə görüşlərdə qaldırılması;
- ❖ İnsan hüquqları müdafiəçilərinə qeyri-hökümət təşkilatları ilə işləmə imkanı yaradaraq, insan hüquqlarının əhəmiyyətini anlatmaq məqsədilə, insan hüquqları üzrə təlim proqramları və bənzər seminarlar keçirmək üçün konfrans mərkəzi kimi BMT vasitələrindən faydalanma imkanının yaradılması;
- ❖ İnsan hüquqları müdafiəçiləri üzrə xüsusi nümayəndə və BMT xüsusi məruzəçiləri tərəfindən verilmiş müvafiq tövsiyələrin qeydə alınması;
- ❖ İşi bilavasitə insan hüquqları müdafiəçiləri ilə (ölkə və BMT ofisindən asılı olmaq şərtilə) bağlı olan BMT "Country Teams" missiyası aşağıdakı rəsmilərdən ibarətdir:
- ❖ BMT rezident-nümayəndəsi və ya rezident-koordinatoru;
- ❖ BƏT, BMT İHAK, UNAIDS, BMP İP, UNESCO, BMT QAK, UNICEF, UNIFEM, ÜƏP və ÜST daxil olmaqla, müxtəlif BMT ofis və proqramlarının rəhbərləri;
- ❖ Proqram koordinatorları, mühafizə və insan hüquqları üzrə vəzifəli şəxslər (xüsusilə BMT QAK, UNICEF, BMT İHAK və BƏT daxilində)
- ❖ Vətəndaş cəmiyyəti ilə əlaqəyə görə məsul olan işçi personalı;
- ❖ İşlərin keyfiyyətlə aparılmasına çalışan personal;
- ❖ Təhsil və məlumat kampaniyalarına görə məsul olan personal;

***2. Regional və beynəlxalq səviyyədə***

BMT sistemi insan hüquqları müdafiəçilərinə regional və beynəlxalq səviyyədə tam dəstək verə bilər. Xüsusi fəaliyyət aşağıdakıları nəzərdə tuta bilər:

- İşçi personalı üçün təşkil edilmiş regional və beynəlxalq təlim proqramlarında insan hüquqları müdafiəçiləri və Bəyannamənin özü haqqında biliklərə əsas diqqət yetirilməsini təmin etmə;
- İnsan hüquqları müdafiəçilərinin BMT agentlikləri və ya proqramları xüsusi mandatının həyata keçirilməsinə yardım edilməsində oynadıqları rolun təhlili və hüquq müdafiəçilərinin qeyd edilən mandatın reallaşmasına verdikləri dəstəyi məhdudlaşdıran istənilən problemin təsbit edilməsi;
- Siyasi sənədlərdə müvafiq insan hüquqları müdafiəçilərinə verilən dəstəyə əsas diqqət yetirilməsini təmin etmə;
- Regional təşkilatlar və xüsusilə BMT mandatı üzrə insan hüquqları problemləri üzərində çalışan hüquq müdafiəçiləri şəbəkəsi ilə davamlı əlaqənin saxlanılması. Hüquq müdafiəçilərinin duya biləcəkləri istənilən təhlükəsizliyi təmin etmə ehtiyacından xəbərdar olma və onları tam mənada dəstəkləmə;
- İnsan hüquqları müdafiəçiləri üzrə xüsusi nümayəndənin hesabat və tövsiyələrinin alınması, təhlil edilməsi və müvafiq ölkələrdəki ofislərə ötürülməsi.

## D. İnsan hüquqları müdafiəçilərinin gördükləri iş

Daha əvvəl Məlumat Vərəqəsində (Fact Sheet) da müzakirə olunduğu kimi, insan hüquqları müdafiəçilərinə hakimiyyət orqanları, vətəndaş cəmiyyəti, özəl sektor və digər çoxsaylı sahələrdə rast gəlinir. Beləliklə, A-dan C-dək olan daha əvvəlki bölümlər insan hüquqları müdafiəçilərinin özlərinə olduğu kimi, eləcə də dövlət orqanları, qeyri-dövlət və hökümətlərarası qurumlardan ibarət geniş kateqoriyaya ünvanlanmışdır. Sonuncu bölüm isə insan hüquqları müdafiəçilərinin qrup şəklində fəaliyyət göstərmələri üçün bəzi əlavə təkliflərdən ibarətdir.

*1. İşin keyfiyyəti*

- Qərəzsizlik və şəffaflığın əsasının qoyulması və buna davamlı riayət edilməsi.
- İnsan hüquqlarının pozulması faktları barədə hesabatlar üçün peşəkar təcrübənin yaradılması.
- Dəqiq hesabatlar sayəsində etimadın qazanılması.
- Digər insan hüquqları təşkilatlarının yüksək standartlara eynilə riayət etdiklərindən əmin olmaq üçün səy göstərilməsi.
- Şərtlərin və milli qanunvericiliyin insan hüquqları müdafiəçiləri haqqındakı Bəyannamə və insan hüquqlarına dair digər beynəlxalq vasitələrə qarşı sadiq olduğunu düşünməklə, qanun və qaydaların, məsələn, qeyri-hökümət təşkilatlarının qeydiyyata alınma qaydalarının insan hüquqları müdafiəçiləri tərəfindən məqbul hesab edildiyinə əmin olması.

*2. Təlim*

- Özünüz və həmkarlarınız, eləcə də polislər, jurnalistlər, müəllimlər və ümumiyyətlə ictimaiyyət üçün insan hüquqları mövzusunda mütəmadi seminarlar təşkil edin. İnsan hüquqları müdafiəçiləri üçün təlimlərə onların daha da peşəkarlaşmasına yönəldilmiş təlimlər, eləcə də müvafiq təhlükəsizlik tədbirləri üzrə məlumatlandırmaların da daxil olması məqsədəuyğundur.
- Bu kimi tədbirlər insan hüquqlarının vəziyyəti barədəki narahatlıqlara və hüquq müdafiəçilərinin işinə diqqət cəlb etmək üçün əlavə vasitə kimi xidmət edə bilər.

*3.Əlaqə vasitələri və şəbəkələr*

- İnsan hüquqları müdafiəçiləri və ümumiyyətlə, mətbuat, dini qurumlar, vətəndaş cəmiyyəti, eləcə də müvafiq özəl sektor mühiti kimi digər vacib subyektlər arasında dəstək şəbəkələri yaradın. Şəbəkələr yerli, milli və regional səviyyələrdə xüsusilə vacibdirlər, lakin onlardan beynəlxalq səviyyədə də yararlanmaq olar.

- ❖ Şəbəkələrdən insan hüquqları müdafiəçilərinin təhlükəsizliyinə nəzarət etmək, risklə üzləşən hüquq müdafiəçisi haqqında məlumatı sürətlə yaymaq, eyni zamanda, hüquq müdafiəçiləri qrupunun insan hüquqlarının tam əhatəli və geniş spektrını təmsil etdiyindən əmin olmaq məqsədilə istifadə edilə bilər. İnsan hüquqlarının pozulması barədə məlumatı ötürmək üçün şəbəkələrdən istifadə edərkən, hüquq müdafiəçiləri əsas tərəfdaşlarını təsbit etməli və onları ən asan vasitə ilə məlumatla təmin etməlidirlər.
- ❖ Bu əlaqə vasitələri özündə ictimai yayım strategiyasını əks etdirə bilər.

***4. Təhlil***

- ❖ İnsan hüquqları müdafiəçilərinin, həmçinin dövlətlərin üzləşdikləri əsas problemləri aydın şəkildə müəyyən edin və onların həlli yolları barədə müvafiq hakimiyyət orqanlarına tövsiyələrinizi əsirgəməyin.

***5. Dövlətin insan hüquqlarını ən yüksək səviyyədə qorumasına dəstək***

- ❖ İnsan hüquqları üzrə təlim keçmiş məmurların ədliyyə naziri, hakim, prokuror, polis rəisi və başqa əhəmiyyətli vəzifələrə təyin edilmələrini alqışlayın.
- ❖ İnsan hüquqları standartlarını tətbiq edən və qoruyan müstəqil institutlar və dövlət müəssisələrinin yaradılmasını təbliğ edin.
- ❖ İnsan hüquqlarının pozuntusu hallarını təhqiq etmələri üçün hakimiyyət orqanlarını dəstəkləyin və cəzasızlığa son qoyulmasına çalışın.

***6. Təhlükəsizlik strategiyaları***

- ❖ Təhdidlərə məruz qalmış insan hüquqları müdafiəçisinin təhlükəsizliyinin təcili olaraq təmin edilməsi üçün strategiya və prosedurlar müəyyən edin. Strategiya elə bir meyarı özündə əks etdirməlidir ki, əgər riskli vəziyyət regional və

beynəlxalq təhlükəsizlik şəbəkələrinə məlumat ötürülməsini labüd edərsə, bu barədə qərar verməк mümkün olsun. Bu halda, dəqiq və dolğun məlumatın təqdim edilməsinə xüsusi diqqət yetirilməlidir.

- ❖ Təhlükəsizlik strategiyası işlərin insan hüquqları müdafiəçiləri üzrə xüsusi nümayəndəyə ötürülməsini nəzərdə tutmalıdır. Məlumat Vərəqəsinə 2 saylı əlavə bu prosedurun necə baş verdiyi barədə məlumat verir.

## *7. İnsan hüquqları müdafiəçilərinə dair Bəyannamədən istifadə*

- ❖ Bəyannamədən ən yüksək səviyyədə istifadə istənilən insan hüquqları müdafiəçisinin strategiyasının bir hissəsini təşkil etməlidir.
- ❖ Bəyannamə yayıla və təlim kampaniyalarının tədris predmetinə çevrilə bilər. İnsan hüquqları müdafiəçiləri ondan irəli gələn qaydaların milli qanunvericilikdə öz əksini tapmasına və ya lokal vəziyyəti əldə rəhbər tutaraq, Bəyannamə qaydalarının tətbiq edilməsi planına dəstək verə bilərlər.

# ƏLAVƏLƏR

## Əlavə I
## Cəmiyyətdəki Fərdlərin, Qrupların və Orqanların Universal şəkildə Tanınan İnsan Hüquqlarının və Əsas Azadlıqların Təşviqi və Müdafiəsi üzrə Hüquq və Vəzifələrinə dair Bəyannamə

**Baş Assambleyanın 53/144 nömrəli, 9 dekabr 1998-ci il tarixli qətnaməsi ilə qəbul edilmişdir**

*Baş Assambleya*

Dünyanın bütün ölkələrindəki hər bir şəxsin bütün insan hüquqları və əsas azadlıqlarının təşviqi və müdafiəsi üçün Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin məqsəd və prinsiplərinə riayət olunmasının əhəmiyyətini bir daha təsdiq edərək,

Həmçinin, insan hüquqları və əsas azalıqlara hamılıqla hörmət və riayət olunmasını təşviq etmək üçün beynəlxalq səylərin əsas elementləri olan Ümumdünya İnsan Hüquqları Bəyannaməsi və İnsan Hüquqlarına dair Beynəlxalq Paktların və BMT sistemi çərçivəsində, eləcə də regional səviyyədə qəbul edilmiş insan hüquqları alətlərinin əhəmiyyətini bir daha təsdiq edərək,

Beynəlxalq birliyin bütün üzvlərinin birlikdə və ayrı-ayrılıqda, heç bir ayrı-seçkilik qoyulmadan, o cümlədən irqindən, dərisinin rəngindən, cinsindən, dilindən, dinindən, siyasi və digər əqidəsindən, milli və ya sosial mənşəyindən, əmlak, sosial mövqe və digər vəziyyətindən asılı olmayaraq, hər bir şəxsin insan hüquqları və əsas azadlıqlarına hörmətin təşviq olunması və dəstəklənməsi ilə bağlı təntənəli vəzifələrini yerinə yetirməli olduqlarını vurğulayaraq və bu vəzifənin Nizamnaməyə uyğun şəkildə yerinə yetirilməsi üçün

beynəlxalq əməkdaşlığa nail olunmasının əhəmiyyətini bir daha vurğulayaraq,

Xalqların və fərdlərin insan hüquqları və əsas azadlıqlarının pozulmasının bütün hallarının, o cümlədən aparteid, irqi ayrı-seçkiliyin bütün formaları, müstəmləkəçilik, xarici hökmranlıq və ya işğal, milli suverenlik, milli birlik və ya ərazi bütövlüyünə qarşı təcavüz və ya təhdidlər və xalqların öz müqəddəratını təyin etmək hüququnu və hər bir xalqın öz sərvətləri və təbii ehtiyatları üzərində tam suverenliyini həyata keçirmək hüququnu tanımaqdan imtina edilməsi kimi hallar nəticəsində baş verən kütləvi, kobud və sistemli pozuntuların səmərəli şəkildə aradan qaldırılmasına töhfə verən beynəlxalq əməkdaşlığın əhəmiyyətli rolunu və fərdlərin, qrupların və birliklərin dəyərli fəaliyyətini etiraf edərək,

Beynəlxalq sülh və təhlükəsizliklə insan hüquqları və əsas azadlıqlardan istifadə arasında əlaqəni qəbul edərək və beynəlxalq sülh və təhlükəsizliyin mövcud olmamasının bu Bəyannaməyə riayət edilməməsi üçün əsas rolunu oynamadığını nəzərə alaraq,

Bütün insan hüquqları və əsas azadlıqların universal, bölünməz, qarşılıqlı bağlılıq və qarşılıqlı əlaqədə olduğunu və bu hüquq və azadlıqların hər birinin yerinə yetirilməsinə xələl gətirilmədən, ədalətli və bərabər şəkildə təşviq edilməli və həyata keçirilməli olduğunu təkrarlayaraq,

İnsan hüquqları və əsas azadlıqların təşviqi və müdafiəsi ilə bağlı başlıca vəzifə və borcun Dövlətlərin üzərində olduğunu vurğulayaraq,

Milli və beynəlxalq səviyyədə insan hüquqları və əsas azadlıqlara hörmətin təşviqində və bu biliklərin artırılmasına yardım edilməsində fərdlərin, qrupların və birliklərin hüquq və vəzifələrini qəbul edərək,

*Bəyan edir:*

## Maddə 1

Hər bir şəxsin, fərdi şəkildə və digərləri ilə birlikdə, insan hüquqları və əsas azadlıqların milli və beynəlxalq səviyyədə müdafiəsi və həyata keçirilməsini təşviq etmək və buna səy göstərmək hüququ var.

## Maddə 2

1. Hər bir Dövlətin başlıca vəzifəsi və borcu, digər tədbirlərlə yanaşı sosial, iqtisadi, siyasi və digər sahələrdə zəruri olan bütün şərtləri yaratmaq üçün lazım ola biləcək addımları atmaqla, həmçinin öz yurisdiksiyası altında olan bütün şəxslərin, fərdi şəkildə və ya digərləri ilə birlikdə, bütün hüquq və azadlıqlardan təcrübədə istifadə edə bilməsini təmin etmək üçün tələb olunan hüquqi təminatları qəbul etməklə, bütün insan hüquqları və əsas azadlıqları müdafiə etmək və həyata keçirməkdir.

2. Hər bir Dövlət bu Bəyannamədə istinad olunan hüquq və azadlıqların effektiv şəkildə təmin olunması üçün zəruri ola biləcək qanunvericilik, inzibati və digər tədbirləri həyata keçirməlidir.

## Maddə 3

BMT-nin Nizamnaməsinə və Dövlətin insan hüquqları və əsas azadlıqlar sahəsindəki digər beynəlxalq öhdəliklərinə uyğun olan ölkədaxili qanunvericilik insan hüquqları və əsas azadlıqların həyata keçirilməli və istifadə edilməli olduğu və bu hüquq və azadlıqların təşviqi, müdafiəsi və effektiv şəkildə reallaşdırılması üçün hazırkı Bəyannamədə istinad olunan bütün tədbirlərin görülməli olduğu hüquqi çərçivədir.

## Maddə 4

Hazırkı Bəyannamə Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin məqsəd və prinsiplərinə ziyan vuracaq və ya ziddiyyət təşkil edəcək şəkildə və ya İnsan Hüquqlarına dair

Universal Bəyannamənin, İnsan Hüquqlarına dair Beynəlxalq Paktların və bu sahədə tətbiq olunan digər beynəlxalq müqavilələrin və öhdəliklərin müddəalarını məhdudlaşdıracaq və ya əhəmiyyətini azaldacaq formada şərh oluna bilməz.

**Maddə 5**

İnsan hüquqları və əsas azadlıqların təşviqi və müdafiəsi məqsədilə, hər bir şəxs, fərdi şəkildə və ya digərləri ilə birlikdə, milli və beynəlxalq səviyyədə:

a) Dinc görüşlər və ya toplantılar keçirmək;

b) Qeyri-hökumət təşkilatları, assosiasiyalar və ya qruplar yaratmaq, bunlara daxil olmaq və fəaliyyətində iştirak etmək;

c) Qeyri-hökumət və hökumətlərarası təşkilatlarla əlaqə saxlamaq hüququna malikdir.

**Maddə 6**

Hər bir şəxsin, fərdi şəkildə və digərləri ilə birlikdə:

a) Bütün insan hüquqları və əsas azadlıqlar haqqında məlumatı bilmək, axtarmaq, əldə etmək, qəbul etmək və malik olmaq, o cümlədən bu hüquq və azadlıqların ölkədaxili qanunvericilikdə, məhkəmə və idarəetmə sistemində necə təmin olunduğu haqda məlumata çıxış əldə etmək;

b) İnsan hüquqlarına dair və digər münasib beynəlxalq müqavilələrdə nəzərdə tutulduğu kimi, bütün insan hüquqları və əsas azadlıqlar haqqında məlumat və bilikləri sərbəst şəkildə dərc etmək, ötürmək və başqalarının görə bilməsi üçün yaymaq;

c) Bütün insan hüquqları və əsas azadlıqlara həm qanunvericilikdə, həm də təcrübədə riayət olunması ilə bağlı vəziyyəti araşdırmaq, bu haqda fikir formalaşdırmaq və rəyə malik olmaq və bu və digər müvafiq vasitələrdən istifadə etməklə ictimaiyyətin diqqətini bu məsələlərə cəlb etmək hüququna malikdir.

**Maddə 7**

Hər bir şəxs, fərdi şəkildə və digərləri ilə birlikdə, insan hüquqları ilə bağlı yeni ideya və prinsipləri inkişaf etdirmək və müzakirə etmək və onların qəbul olunmasını müdafiə etmək hüququna malikdir.

**Maddə 8**

1. Hər bir şəxs, fərdi şəkildə və digərləri ilə birlikdə, heç bir ayrı-seçkiliyə yol verilmədən, öz ölkəsinin idarə olunmasında və dövlət işlərinin aparılmasında iştiraka effektiv çıxış əldə etmək hüququna malikdir.

2. Buraya, digər məsələlərlə yanaşı, fərdi şəkildə və digərləri ilə birlikdə, hökumət orqanlarına və qurumlarına, eləcə də dövlət işlərini həyata keçirən təşkilatlara tənqidi qeydləri və onların fəaliyyətinin yaxşılaşdırılması ilə bağlı təklifləri təqdim etmək və diqqəti onların işinin insan hüquqları və əsas azadlıqların təşviqi, müdafiəsi və reallaşdırılmasını çətinləşdirə və ya əngəlləyə biləcək aspektlərinə yönəltmək hüququ daxildir.

**Maddə 9**

1. Hər bir şəxs insan hüquqları və əsas azadlıqlarını həyata keçirərkən, o cümlədən hazırkı Bəyannamədə qeyd olunmuş insan hüquqlarını təşviq və müdafiə edərkən, fərdi şəkildə və digərləri ilə birlikdə, effektiv hüquqi müdafiə vasitələrindən istifadə etmək və bu hüquqların pozulması halında müdafiə olunmaq hüququna malikdir.

2. Bu məqsədlə, hüquq və azadlıqlarının pozulduğu ehtimal olunan hər bir kəsin, şəxsən və ya qanuni səlahiyyətli nümayəndəsi vasitəsilə, müstəqil, qərəzsiz və səlahiyyətli məhkəməyə və ya qanunauyğun şəkildə yaradlmış digər orqana şikayət etmək, bu şikayətinə həmin orqanın açıq iclasında təxirə salınmadan baxılmaq və həmin şəxsin hüquq və azadlıqlarının pozuntusunun mövcud olduğu hallarda, qanuna müvafiq olaraq, həmin orqandan, vəziyyətin

düzəldilməsini, o cümlədən istənilən zəruri kompensasiyanın ödənilməsini təmin edən, qərarı əldə etmək, həmçinin yekun qərarın və kompensasiya ödənişinin, heç bir əsassız gecikmə olmadan, məcburi icrasına nail olmaq hüququ var.

3. Eyni məqsədlə, hər bir şəxsin, fərdi şəkildə və digərləri ilə birlikdə, xüsusilə:

a) İnsan hüquqları və əsas azadlıqların pozulması il əlaqədar ayrı-ayrı vəzifəli şəxslərin və hökumət qurumlarının siyasət və hərəkətlərindən, öz qərarını heç bir əsassız gecikməyə yol vermədən çıxarmalı olan, səlahiyyətli milli məhkəmə, inzibati və ya qanunvericlik orqanına və ya Dövlətin hüquq sistemində nəzərdə tutulmuş istənilən səlahiyyətli orqana, şikayət ərizəsi və ya digər müvafiq vasitələrlə müraciət etmək;

b) Ölkədaxili qanunvericiliyə və münasib beynəlxalq vəzifə və öhdəliklərə uyğunluğu haqda rəy formalaşdırmaq məqsədilə, açıq iclaslarda, məhkəmə araşdırmasında və məhkəmə prosesində iştirak etmək;

c) İnsan hüquqları və əsas azadlıqların müdafiəsində peşəkarlıqla ixtisaslaşmış hüquqi yardım və ya digər münasib məsləhət və yardım təklif və təmin etmək hüququ var.

4. Eyni məqsədlə və tətbiq edilə bilən beynəlxalq müqavilələr və prosedurlara uyğun olaraq, hər bir şəxsin, fərdi şəkildə və digərləri ilə birlikdə, insan hüquqları və əsas azadlıqlara dair məsələlərlə bağlı, ümumi və ya xüsusi səlahiyyətə malik beynəlxalq qurumlara maneəsiz çıxış əldə etmək və əlaqədə olmaq, onlardan məlumat qəbul etmək və bu məlumatları nəzərdən keçirmək hüququ var.

5. Dövlət, öz yurisdiksiyası altında olan hər hansı ərazidə insan hüquqları və əsas azadlıqların pozulmasına dair kifayət qədər əsas olduğu zaman, təxirəsalınmaz və qərəzsiz araşdırma həyata keçirməli və ya bu araşdırmanın keçirilməsini təmin etməlidir.

## Maddə 10

Heç kim hansısa hərəkəti etməklə və ya tələb olunan hərəkəti yerinə yetirməməklə, insan hüquqları və əsas azadlıqların pozulmasında iştirak etməməli və heç kim bu pozuntuda iştirakdan imtina etdiyinə görə hansısa şəkildə cəzalandırılmamalı və ya təqib olunmamalıdır.

## Maddə 11

Hər bir şəxs, fərdi şəkildə və digərləri ilə birlikdə, qanuni əsasda, özünün fəaliyyət növü ilə məşğul olmaq və ya öz peşəsinə uyğun olaraq işləmək hüququna malikdir. Öz peşəsi səbəbindən insan ləyaqətinə, başqalarının insan hüquqları və əsas azadlıqlarına təsir göstərə biləcək hər bir şəxs bu hüquq və azadlıqlara hörmət etməli və fəaliyyət növü və peşəsi ilə bağlı olan müvafiq milli və beynəlxalq davranış və etika standartlarına riayət etməlidir.

## Maddə 12

1. İnsan hüquqları və fundamental azadlıqların pozulmasına qarşı hər kəsin fərdi şəkildə və ya digərləri ilə birlikdə dinc tədbirlərdə iştirak etmək hüququ vardır.

2. Hazırkı Bəyannamədə istinad edilən hüquqların qanuni şəkildə həyata keçirilməsi nəticəsində baş verən istənilən zorakılığa, hədələrə, təzyiq tədbirlərinə, de facto və de jure mənfi ayrı-seçkiliyə, təzyiq və ya hər hansı digər ixtiyari tədbirə qarşı hər kəsin fərdi şəkildə və ya digərləri ilə birlikdə səlahiyyətli orqanlar tərəfindən müdafiəsini təmin etmək üçün Dövlət bütün zəruri tədbirləri görəcəkdir.

3. Bu baxımdan Dövlətlərin hərəkətsizliyi sayəsində insan hüquqları və fundamental azadlıqların pozulması ilə nəticələnən fəaliyyət və əməllərə, eləcə də qruplar və ya fərdi şəxslər tərəfindən törədilən, insan hüquqları və fundamental azadlıqların həyata keçirilməsinə təsir edən zorakılıq aktlarına qarşı dinc yolla tədbirlərin görülməsi və ya müqavimətin göstərilməsi halında hər

kəsin fərdi şəkildə və digərləri ilə birlikdə milli qanunvericiliklə səmərəli şəkildə qorunması haqqı vardır.

### Maddə 13

Hər kəsin fərdi şəkildə və digərləri ilə birlikdə hazırkı Bəyannamənin 13-cü maddəsinə uyğun olaraq dinc yolla insan hüquqları və fundamental azadlıqların təşviq edilməsi və qorunması məqsədini güdən resurslar üçün müraciət etmək, onları qəbul edərək istifadə etmək hüququ vardır.

### Maddə 14

1. Dövlət öz yurisdiksiyası altında olan bütün şəxslərin öz mülki, siyasi, iqtisadi, social və mədəni hüquqlarını anlamasına yardım etmək üçün cavabdehlik daşıyır.

2. Belə tədbirlərə, digərləri ilə yanaşı, aşağıdakılar da daxil olacaqdır:

(a) Milli qanunvericilik və qaydaların, eləcə də insan hüquqları üzrə əsas beynəlxalq alətlərə şamil edilənlərin nəşr edilməsi və geniş yayılması;

(b) İnsan hüquqları sahəsində üzv olduğu beynəlxalq sazişlərə uyğun təsis etdiyi orqanlara Dövlətin təqdim etdiyi dövri hesabatlar da daxil olmaqla insan hüquqları sahəsində beynəlxalq sənədlərə, eləcə də müzakirələrin icmal qeydlərinə və həmin orqanların rəsmi hesabatlarına tam və bərabər çıxışın olması.

3. Dövlət öz yurisdiksiyası altında olan bütün ərazidə insan hüquqları və fundamental azadlıqların təşviqi və qorunması üçün ombudsman, insan hüquqları müvəkkili və ya milli qurumun hər hansı digər forması kimi yeni müstəqil milli orqanların təsis edilməsini və inkişaf etdirilməsini, müvafiq hallarda, təmin edəcək və dəstəkləyəcəkdir.

**Maddə 15**

Dövlət insan hüquqları və fundamental azadlıqların təhsilin bütün səviyyələrində tədris edilməsini təşviq edib dəstəkləyəcək, hüquqşünasların, hüquq mühafizə məmurlarının, silahlı qüvvələrin işçi heyətinin və dövlət rəsmilərinin təlimi üçün cavabdeh olan bütün tərəflərin öz təlim proqramına insan hüquqlarının tədrisində müvafiq elementlərin daxil edilməsini təmin edəcəkdir.

**Maddə 16**

Fərdlər, qeyri-hökumət təşkilatları və müvafiq qurumlar fəaliyyət göstərdiyi cəmiyyətlərin və icmaların müxtəlif xüsusiyyətlərini nəzərə alaraq bütün millətlər və bütün irqlər və dini qruplar arasında, digər məsələlərlə yanaşı, anlaşma, tolerantlıq, sülhsevərlilik və dostyana münasibətləri daha da gücləndirməklə insan hüquqları və fundamental azadlıqlar sahəsində təhsil, təlim və tədqiqat kimi fəaliyyəin aparılması ilə bu sahələrlə bağlı məsələlər barəsində ictimaiyyətin məlumatlandırılmasının artırılmasında mühüm rol oynayırlar.

**Maddə 17**

Hazırkı Bəyannamədə istinad edilən hüquq və azadlıqların həyata keçirilməsində fərdi şəkildə və digərləri ilə birgə fəaliyyət göstərən hər bir kəs digərlərinin hüquq və azadlıqlarının lazımi şəkildə tanınması və onlara hörmət göstərilməsi, demokraitk cəmiyyətdə əxlaq, ictimai asayiş və ümumi rifahın ədalətli tələblərinin ödənməsi üçün tətbiq olunan beynəlxalq öhdəliklərə uyğun olan və ancaq qanunveriicliklə müəyyən edilən məhdudiyyətlərə məruz qalacaqdır.

**Maddə 18**

1. Hər kəsin öz şəxsiyyətinin sərbəst və tam şəkildə inkişafının mümkün olduğu cəmiyyət qarşısında və cəmiyyətdə öhdəlikləri vardır.

2. Fərdlərin, qrup, qurum və qeyri-hökumət təşkilatlarının demokratiyanın qorunmasında, insan hüquqları və fundamental azadlıqların təşviqində, demokratik cəmiyyətlərin, institut və proseslərin təşviqi və inkişafında mühüm rolu və cavabdehliyi vardır.

3. Ümumdünya İnsan Hüquqları Bəyannaməsində və insan hüquqları sahəsində digər alətlərdə müəyyən edilən hüquq və azadlıqların tam şəkildə həyata keçirilə biləcəyi sosial və beynəlxalq qaydaya hər kəsin müvafiq şəkildə töhfə etməsi hüququnun təşviq edilməsində fərdlər, qrup, qurum və qeyri-hökumət təşkilatları mühüm rol oynayır.

**Maddə 19**

Hazırkı Bəyannamədə heç nə hər hansı fərdə, qrup və ya cəmiyyət orqanına və ya hər hansı Dövlətə Bəyannamədə istinad edilən hüquq və azadlıqların ləğv olunmasına yönəlmiş fəaliyyətlə məşğul olmağa və ya əməl törətməyə hüquq verdiyi kimi şərh oluna bilməz.

**Maddə 20**

Hazırkı Bəyannamədə heç nə fərdlərin, şəxslərin qruplarının, qurum və ya qeyri-hökumət təşkilatlarının Birləşmiş Millətlər Təşkilatının Xartiyasının müddəalarına zidd olan fəaliyyətini dəstəkləmək və onu təşviq etmək üçün Dövlətlərə verilən icazə kimi şərh oluna bilməz.

# Əlavə II

## İnsan hüquq müdafiəçilərinə dair Bəyannamənin tələblərinin pozuntuları ilə bağlı iddiaların Xüsusi Nümayəndəyə təqdim edilməsinə dair Təlimatlar

### Düzgün informasiyanın seçilməsi – Onun aydın təqdim edilməsi

- Şikayəti göndərməzdən əvvəl əmin olun ki, A sütununda 1-7 maddələri (Əsas məlumatlar) ərizəyə daxil edilmişdir. Son dərəcədə təcili olan hallarda bu təfərrüatların bəziləri olmadan belə məsələni təqdim etmək olar, ancaq onların yoxluğu məsələnin nəzərdən keçirilməsini daha da çətinləşdirir.
- Əgər əlavə məlumatınız varsa, bu faydalı ola bilər. Faydalı olan əlavə məlumata dair nümunələr B sütununda verilir (Faydalı informasiya). Bu təfərrüatlar əhəmiyyətli deyil, ancaq bəzi hallarda vacib ola bilər.
- İnformasiya siyahı formasında (A sütununda olduğu kimi) və ya məktub formasında göndərilə bilər. C sütununda məsələyə dair informasiya nümunəsi və bunun məktuba necə daxil edilə biləcəyi göstərilir. Düzgün təfərrüatları göstərmək və onları aydın ifadə etmək məktubun cavabının tez göndərilməsini asanlaşdırır.

### Məxfilik

- Qurbanın şəxsiyyəti Xüsusi Nümayəndə ilə Dövlət orqanları arasında olan istənilən ünsiyyət zamanı bildiriləcəkdir. Xüsusi Nümayəndə qurbanın şəxsiyyətini aşkar etməsə müdaxilə edə bilməz. Əgər qurban azyaşlıdırsa (18 yaşdan aşağı), o zaman Xüsusi Nümayəndə onun adını Dövlətlə olan əlaqəsinə daxil edəcək, ancaq sonradan nəşr

edilәcәk ictimai hesabatlarda adı göstәrmәyәcәkdir. Verilәn informasiya mәnbәyi vә ya qurban da xahiş edә bilәr ki, qurbanın adı ictimai hesabatlarda çәkilmәsin.

- Әgәr ehtimal edilәn hüquq pozuntusuna dair informasiya mәnbәyi aşkarlanmaq istәmәsә, mәnbә hәr zaman mәxfi saxlanır. İnformasiya tәqdim edәrkәn hәr hansı digәr mәlumatın mәxfi saxlanmasını istәdikdә bunu qeyd edә bilәrsiniz.

**Sәnәdlәri göndәrmәk vә sonrakı yazışma üçün әlaqә nömrәlәri**

- Müraciәt olunduğu tәqdirdә, Xüsusi Nümayәndә heyәti verilәn sәnәdlәrin qәbul edildiyi barәdә mәlumatı tәqdim edәcәkdir. Әlavә müzakirә üçün istәnilәn zaman onlarla әlaqә saxlamaq olar.
- E-poçtla әlaqә üçün: urgent-action@ohchr.org

E-poçtun mәtni insan hüquq müdafiәçilәrinin mandatına istinad etmәlidir.

- Faks: +41 22 917 9006 (Cenevrә, İsveçrә)
- Telefon: +41 22 917 1234. Bu, İsveçrәnin Cenevrәdәki Birlәşmiş Millәtlәr Tәşkilatının telefon operatorunun nömrәsidir. Zәng vuran şәxslәr İnsan Hüquqları üzrә Komissiyanın xüsusi prosedurları ilә mәşğul olan Birlәşmiş Millәtlәr Tәşkilatının İnsan Hüquqları üzrә Ali Komissarlığı ilә vә xüsusilә dә Xüsusi Nümayәndәnin insan hüquqları müdafiәçilәri ilә bağlı mandatını dәstәklәyәn әmәkdaşlarla danışmaq arzusunda ola bilәrlәr.

| A<br>Əsas məlumat | B<br>Faydalı məlumat | C<br>Xüsusi Nümayəndəyə göndərilən məktubun nümunəsi |
|---|---|---|
| **1. Ehtimal olunan qurban/ların adı**<br>**Ad** və familyanı yazın və düzgün göstərin.<br><br>Qurbanlar fərdlər, qruplar və ya təşkilatlar ola bilər. | Əgər qurban fərdi şəxsdirsə, xahiş edirik onun cinsi, yaşı, milliyyəti və peşəsi barədə məlumat verin<br>Əgər qurban fərdi şəxs və ya təşkilatdırsa, xahiş edirik onun əlaqə nömrələrini göstərin. | Hüquqşünas Eeb Ddi [şəhərin/qəsəbənin və ölkənin adı] yaşayır. |
| **2. Hüquq müdafiəçisi kimi qurbanın statusu**<br><br>Qurban (şəxs/lər, təşkilat) insan hüquqları ilə bağlı hansı fəaliyyətlə məşğuldur? | Əlaqə nömrələri məxfi saxlanacaqdır.<br><br>Müvafiq yerlərdə xahiş edirik qurbanın (şəxs/lər, təşkilat) insan hüquqları sahəsindəki işi yerinə yetirdiyi şəhər və ölkəni göstərin. | Eeb Ddii etnik azlıqlar adından müvafiq yaşayış yerinə olan hüquqları dəstəkləyən hüquqi məsələlərlə məşğul olur.<br>O, həm də İnsan Hüquqları Milli Komissiyasının üzvüdür. |
| **3. Qurbana qarşı ehtimal olunan hüquq pozuntu/ları**<br><br>Nə baş verdi? Harada? Nə zaman? İndi vəziyyət nə yerdədir? | İlkin hüquq pozuntusu digər aktlarla nəticələnibsə, xahiş edirik onları xronoloji qaydada təsvir edin. Məsələn, əgər ilkin narahatlıq hüquq müdafiəçisinin tutulması ilə bağlıdırsa, təfərrüatlar təqdim edilməlidir. | Eeb Ddi təhlükəsizliyinə qarşı yönəldilmiş anonim bir təhdidlə üzləşib. Bizdə olan məlumata görə, (gün\ay\il) tarixdə xanım Ddi (şəhərin\rayonun adı) yerləşən ofisində bir məktub alıb. Məktub bilavasitə ona ünvanlanıb və |

| | | |
|---|---|---|
| | Ancaq əgər o, sonradan tutulubsa, digər faydalı məlumatlar daxil edilməlidir: saxlanma yeri; həmin şəxsin hüquqşunasla təmin olunub-olunmadığı; saxlanma şərtləri; ittihamlar; və s. | sadəcə “Ehtiyatlı ol!” sözlərindən ibarət olub. Üstəlik, ertəsi gün iş yerindən maşınla evinə gedərkən, iki nəfər ağ avtomobillə xanım Ddini təqib edib. |
| **4. Günahkarlar Hüquq pozuntusuna ehtimalla kimin yol verdiyinə dair məlumat vermək:** Məsələn, iki insan (formada?); Vəzifəsi, bölməsi və ya digər identifikasiya və ya rütbə. | **Şahidlər** Ehtimal olunan hüquq pozuntularının hər hansı şahidləri olubmu? Digər qurbanlar olubmu? | Eeb Ddi öz maşınları ilə onu izləyən iki nəfərin kim olduğunu müəyyən edə bilməyib. Xanım Ddini müşayiət edən dostu da onları təqib edən avtomobili görüb. |
| **5.Hakimiyyət orqanları tərəfindən tədbirlər** Məsələ barədə müvafiq orqanlara məlumat verilibmi? Nə kimi tədbir görülübdür? | **Qurban və ya hüquq müdafiə təşkilatlarının gördüyü tədbir** Ehtimal olunan hüquq pozuntuları ictimaiyyətə açıqlanıbmı? Bu məlumat digər insan hüquq qruplarına göndərilibmi? | Eeb Ddi elə həmin gün yerli polis bölməsinə (adı\ünvanı) hər iki hadisə barədə məlumat verib. Polis işlə bağlı təhqiqata başlayıb. Eeb Ddi həmçinin yerli qəzetlə (adı) bağlı olan hadisələr barədə polisə məlumat verib. |
| **6. Hüquq pozuntusu ilə insan hüquqları sahəsindəki iş arasında əlaqə.** Nə üçün ehtimal | **Əvvəlki insidentlər** Əvvəllər insident baş veribsə, xahiş edirik təfərrüatları ilə göstərin. | Bir il öncə (tarix), Eeb Ddinin də mənsub olduğu etnik qrupu təmsil edən başqa bir hüquqşünas |

olunan hüquq pozuntusunun qurbanın insan hüquqları sahəsindəki işinə cavab reaksiyası olduğunu düşünürsünüz?

**7. Bu məlumatı kim təqdim edir?**

(Məxfi) Adınızı və əlaqə məlumatlarınızı bildirin. Əgər lüzum varsa, peşəniz barədə də məlumat verin. Təqdimatlar təşkilatlar və ya fərdi şəxslər tərəfindən təqdim edilə bilər. Bu məktub Eeb Ddinin də çalışdığı İnsan hüquqları milli komissiyası tərəfindən təqdim edilib.

eynilə xanım Ddinin aldığı məktuba bənzər təhdidlə dolu bir məktub alıb və sonradan (tarix) naməlum şəxslər tərəfindən qətlə yetirilib.

**Yeniliklər**

Xahiş edirik, əldə etdiyiniz istənilən yeni məlumatı ən qısa zamanda bizə göndərəsiniz. Bu, zərərçəkmişin durumu ilə əlaqədar hər hansı bir dəyişikliyin baş verib-vermədiyini öyrənmək üçün xüsusilə vacibdir.

Yeniliklər barədə məlumatı vermək olar:

- əlavə məlumatlar əldə ediləndə (qanunu pozmuş şəxsin kimliyinin təsbiti və s.);
- yeni hadisələr cərəyan edəndə (müvəqqəti saxlanılma təcridxanasından buraxılma və s.)

(iki ay sonra) Bu gün (tarix) öyrəndik ki, polis təhqiqatı dünən başa çatıb. Eeb Ddiyə (tarix) hədə-qorxu məktubu göndərməkdə və ertəsi gün işdən çıxarkən, maşınları ilə onu təqib etməkdə şübhəli bilinən iki nəfər saxlanılaraq həbs ediliblər. Onlar, iki həftəyə məhkəmə qarşısına çıxarılacaqlar. Həbslərdən məmnun qalan xanım Ddi həm də inanır ki, bütün bunları sifariş edən şəxs hələ də azadlıqdadır. O, polisdən təhqiqatı davam etdirməyi xahiş edib.

# İnsan hüquqlarına dair Məlumat vərəqələri: *

| | |
|---|---|
| No. 02 | İnsan hüquqları haqqında Beynəlxalq Akt (Düz.1) |
| No. 03 | İnsan hüquqları sahəsi üzrə məsləhət xidmətləri və texniki əməkdaşlıq (Düz.1) |
| No. 04 | İşgəncə ilə mübarizə (Düz.1) |
| No. 06 | Zorla və ya könülsüz itkin düşmələr (Düz.2) |
| No. 07 | Şikayət prosedurları (Düz.1) |
| No. 09 | Yerli xalqların hüquqları (Düz.1) |
| No. 10 | Uşaq hüquqları (Düz.1) |
| No. 11 | Heç bir məhkəmə qərarı olmadan, qanunsuz icra edilən edamlar (Düz.1) |
| No. 12 | İrqi ayrı-seçkiliyə qarşı Komitə |
| No. 13 | Beynəlxalq humanitar hüquq və insan hüquqları |
| No. 14 | Quldarlığın müasir formaları |
| No. 15 | Mülki və siyasi hüquqlar: İnsan hüquqları Komitəsi |
| No. 16 | İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitə (Düz.1) |
| No. 17 | İşgəncə əleyhinə Komitə |
| No. 18 | Azlıqların hüquqları (Düz.1) |
| No. 19 | İnsan hüquqlarının təşviqi və müdafiəsi üzrə milli institutları |
| No. 20 | İnsan hüquqları və qaçqınlar |
| No. 21 | Mənzil hüququ |
| No. 22 | Qadınlara qarşı ayrı-seçkilik: Konvensiya və Komitə |

| | |
|---|---|
| No. 23 | Qadın və uşaqların sağlamlığına təsir edən ənənəvi zərərli təcrübələr |
| No. 24 | Mühacir fəhlələrin hüquqları |
| No. 25 | Məcburi köçürülmələr və insan hüquqları |
| No. 26 | Qanunsuz saxlanılmalara qarşı işçi qrupu |
| No. 27 | BMT xüsusi məruzəçiləri haqqında ən çox soruşulan 17 sual |
| No. 28 | Xalqların öz müqəddəratını təyinetmə hüququna muzdlu fəaliyyətlərin təsiri |
| No. 29 | Hüquq müdafiəçiləri: İnsan hüquqlarının müdafiəsi hüququnun qorunması |

* Məlumat Vərəqələrinin 1, 5 və 8-ci sayları artıq dərc olunmur.

İnsan hüquqlarına dair Məlumat Vərəqələri məcmusu BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarının Cenevrə ofisi tərəfindən dərc etdirilmişdir. Burada fəal müzakirə subyekti olan və ya xüsusi maraq kəsb edən insan hüquqlarına dair seçilmiş suallar öz əksini tapmışdır.

İnsan hüquqlarına dair Məlumat Vərəqələri insan hüquqlarının əsaslarının daha yaxşı dərk edilməsi üçün ən geniş auditoriyaya kömək məqsədi daşıyır. BMT bu hüquqları təşviq edir və qoruyur, beynəlxalq mexanizmlər isə onların reallaşmasına yardım etmək iqtidarındadırlar. Dünyanın hər yerində paylanan insan hüquqlarına dair Məlumat Vərəqələri pulsuzdurlar. Onların BMT-nin rəsmi dilləri sırasına aid olmayan digər dillərdə təkrar çap edilməsi alqışlanan addımdır, lakin mətndə heç bir dəyişikliyin edilməyəcəyi təmin olunmalıdır. BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarının Cenevrə ofisi materialları təkrar dərc edən təşkilat tərəfindən məlumatlandırılır və orijinal mənbənin əldə rəhbər tutulacağına dair zəmanət alır.

Suallar aşağıdakı təşkilatlara ünvanlandırılmalıdır:

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarının Cenevrə ofisi:
BMT-nin Cenevrədəki ofisi
8-14, Avenue de la Paix
1211 Cenevrə 10
İsveçrə

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarının Nyu-York ofisi:

Birləşmiş Ştatlar
Nyu-York, NY 10017
Amerika Birləşmiş Ştatları

BMT-nin Cenevrə ofisində çap edilmişdir
GE.04-40463–aprel 2004–11,845
ISSN 1014-5567

İNSAN HÜQUQLARI

UNITED NATIONS